QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 182 (5654) **27 sentyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*

## “Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürüb”



Prezident İlham Əliyev “Azerspace 2” peykinin orbitə buraxılması münasibətilə xalqımızı təbrik edib

Səh 2

Azərbaycanın daha bir uğurlu tarixi günü



3

“Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədədir”



5

Yaxın zamanlarda dərman vasitələrinin ölkəmizə gətirilməsi qaydaları sadələşdiriləcək



6

Əli Laricani: Azərbaycan Prezidenti İlham Əliyev uğurlu xarici siyasət aparır



6

Aşotyan: “Paşinyan küçələri bağlaya bilər, amma ağızları əsla”



10

“Paşinyan Yerevan küçələri ilə BMT-nin kürsüsünü qarışıq salıb”



6

11

27 Sentyabr Beynəlxalq Turizm Günüdür



14

“Pənah Hüseyn bəzən müxalifət cəbhəsində texnoloq kimi tanınıb və müəyyən anormal təkliflərlə çıxış edib”



16

Kafu: “Hər bir komanda müsbət nəticə qazana bilər”



# "Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürüb"

*Prezident İlham Əliyev "Azerspace 2" peykinin orbitə buraxılması münasibətilə xalqımızı təbrik edib*

***Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib. Dövlətimizin başçısı deyib:***

-Əziz həmvətənlər.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün "Azerspace 2" peykimiz orbitə çıxarıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Bu, ölkəmizin növbəti qələbəsidir, dövlətimizin növbəti uğurudur.

Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azerspace 1" telekommunikasiya peyki, "Azersky" müşahidə peyki və "Azerspace 2".

Bildiyiniz kimi, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd edilir. Mənim Sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Eyni zamanda, gələn ay biz müstəqilliyimizin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Biz "Azerspace 2" peykimizin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edirik.

Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır. Bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər. Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür. Eyni zamanda, kadr hazırlığı üçün Azərbaycanın kosmik sənayesinin inkişafı önəmli rol oynayır. Peykləri idarə edən kadrlar azərbaycanlı mütəxəssislərdir və onların böyük əksəriyyəti gənclərdir.

Kosmik sənayenin inkişafı bu sahədə beynəlxalq əməkdaşlığımızı da dərinləşdirir. Biz dünyanın bu sahədə böyük təcrübəyə malik olan aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Peyklərin, eyni zamanda, kommersiya tərəfi var. Bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində ölkəmizə valyuta gəlir. Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır. Eyni zamanda, "Azersky" müşahidə peyki vasitəsilə biz nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azersky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk.



İnfrastruktur layihələrimizin icrası və mövcud infrastrukturun qorunması üçün peyklərin böyük əhəmiyyəti var. Kənd təsərrüfatının inkişafı, ekoloji vəziyyətə nəzarət, torpaqlardan səmərəli şəkildə istifadə edilməsi - bütün bu işlərdə "Azersky" müşahidə peykinin xüsusi rolu var.

Bir sözlə, əziz vətəndaşlar, əziz dostlar, bu gün ölkəmizin həyatında növbəti əlamətdar bir gündür. Azərbaycan qısa müddət ərzində dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək.

Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

# Azərbaycan cüdoçusu dünya çempionatında gümüş medal qazanıb

*Prezident İlham Əliyev Milli Gimnastika Arenasında final görüşünə baxıb*

Bakıda cüdo üzrə dünya çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləyiblər.

Çempionatın yeddinci günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bilib. Uşanqi Kokauri belaruslu Vladislav Tsiarpitskiyə, Polşa idmançısı Masiey Sarnackiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltıboevə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə gürcüstanlı Quram Tuşişviliyə məğlub olan cüdoçumuz gümüş medalla kifayətlənib. 2016-cı ildə Avropa kubokunun qalibi olan Uşanqi Kokauri həmin il Kazanda keçirilən Avropa çempionatının bürünc medalını qazanıb. Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.






# Azərbaycanın daha bir uğurlu tarixi günü

## *İlham Əliyev: "Azərspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir"*



***Orbitdə özünün telekommunikasiya peyki olan azsaylı ölkələrdən biri olan Azərbaycanın "Azərspace 2" peyki orbitə buraxıldı. Bu, Azərbaycan xalqının daha bir uğuru olaraq tarixə yazıldı. "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb. 5 il bundan əvvəl "Azerspace 1"-in orbitə buraxılması, bir daha təsdiqlədi ki, bu gün Azərbaycan beynəlxalq aləmdə neft-qaz, turizm, tolerant, idman ölkəsi, eyni zamanda, innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb.***




"Azerspace-2" peykinin orbitə buraxılması münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızı təbrik edərək, bunun ölkəmizin həyatında çox əlamətdar bir gün olduğunu bildirib və ölkəmizin növbəti qələbəsi, dövlətimizin növbəti uğuru olduğunu qeyd edib: "Son beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxara bilmişdir. Azərbaycan bu gün dünyanın kosmik klubunun üzvüdür və dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Peyklərin orbitə çıxarılması dövlətimizin gücünü göstərir, bizim siyasətimizi göstərir. Bizim artıq 3 peykimiz var: "Azərspace 1" telekommunikasiya peyki, "Azərsky" müşahidə peyki və "Azərspace 2".

Prezident İlham Əliyev "Azərspace 2" peykinin orbitə çıxarılmasını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, Azərbaycanın dövlət müstəqilliyinə həsr edildiyini qeyd edib. Sözsüz ki, bu uğurlar Azərbaycanda yüksək texnologiyaların tətbiqinə və ölkədə kosmik sənayenin yaradılmasına göstərilən böyük diqqətdir. Eyni zamanda, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, rabitənin inkişafı sahəsində də qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb. Bu gün ölkəmizdə İKT sektoru sürətlə inkişaf edir. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani təsdiqidir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncam imzalandı. Həmin quruma telekommunikasiya peykinin istehsalı və orbitə çıxarılması, əsas və ehtiyat Yerüstü Peyk İdarəetmə Mərkəzinin yaradılması ilə bağlı xüsusi tapşırıq verildi. Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspace-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti olaraq tarixə düşdü. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. İstismar müddəti 15 il olan "Azərspace-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində bu peykin fəaliyyətinin iqtisadi cəhətdən də səmərəli olacağını vurğulamışdır: "Gələcəkdə bu sahənin hər bir ölkə üçün nə qədər vacib olduğunu, əminəm ki, hər kəs görəcəkdir. Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

Artıq ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan, ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 121 televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb.

Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Ölkədə bu sahənin inkişafını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyev təbrikində bildirib ki, bu gün Azərbaycan öz məhsulunu ixrac edir və peyklərin fəaliyyəti nəticəsində, ölkəmizə valyuta gəlir: "Azərbaycanın kosmik sənayedə əldə etdiyi uğurlar, eyni zamanda, qeyri-neft sektorumuzu inkişaf etdirir, qeyri-neft sənayemizi irəliyə aparır. Təsadüfi deyil ki, bu ilin səkkiz ayının göstəricilərinə görə, Azərbaycanda qeyri-neft sənayesi təxminən 11 faiz artmışdır. Eyni zamanda, "Azərsky" müşahidə peyki vasitəsilə biz, nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim müntəzəm olaraq izləyə bilirik, nəzarət edə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində, biz bu sahədə də xaricdən asılılığı tamamilə aradan qaldırdıq və bir çox ölkələr üçün peyk xidməti göstəririk".

Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısını qeyd etdiyi kimi, Azərbaycan qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir: "Azərbaycan qarşıya qoyduğu bütün vəzifələri uğurla icra edir. Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. "Azərspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək." Əlbəttə ki, informasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Romada Müqəddəs Sebastian katakombalarının açılışı olub

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib*











***Romada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının sentyabrın 26-da açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib.***

Kardinal Can-Franko Ravazi Birinci vitse-prezident Mehriban Əliyevanı qarşıladı. Sonra Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Müqəddəs Sebastian katakombalarının açılışı oldu.

Birinci vitse-prezident Mehriban Əliyeva və Kardinal Can-Franko Ravazi rəmzi açılışı bildirən lenti kəsdilər.

Burada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərinə 2016-cı ildə başlanılıb. Görülən işlərə görə Azərbaycanın Birinci vitse-prezidentinə minnətdarlıq ifadə olundu. Bildirildi ki, bərpa işləri mükəmməl həyata keçirilib. Ümumilikdə, katakombalarda 8 minə yaxın sərdaba yerləşir. Katakombaların zəngin tarixi var. Onlar bütün xristian dünyası üçün mühüm əhəmiyyət daşıyır. Katakombalar təbii və ya süni yeraltı məntəqələrdir. Onlar çox dar dəhlizlərdən ibarət olur. Əvvəllər Romada müqəddəs Sebastian kilsəsinin altında yerləşən dəfn qalereyalarına katakombalar deyilirdi. Bu katakombalar 1578-ci ildə aşkarlanıb. Buradakı bəzi abidələrin yaşı III əsrə gedib çıxır.

Qeyd edək ki, bundan əvvəl Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombaları da bərpa olunub. Dünya mədəniyyəti, xüsusilə də xristianlar üçün böyük mənəvi dəyəri olan katakombaların müsəlman ölkəsi Azərbaycanın Heydər Əliyev Fondu tərəfindən bərpa edilməsi ölkəmizin dinlərarası və mədəniyyətlərarası dialoqa verdiyi növbəti töhfədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dünya əhəmiyyətli tarixi, dini, mədəni abidələri bərpa etməsi həm də ümumilikdə, ölkəmizin təbliği, dünyada layiqincə təmsil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

# "Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədədir"

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk ilə görüşüb*





İtaliyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 26-da Roma Papası Fransisk ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığımızın mədəni irsin qorunması sahəsində daha da genişləndiyi vurğulandı. Azərbaycanın dinlərarası, mədəniyyətlərarası dialoqa mühüm töhfələr verdiyi qeyd edildi.

Söhbət zamanı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti, Fondun xristian abidələrinin qorunması, bərpası istiqamətində gördüyü işlər yüksək qiymətləndirildi. Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Roma Papasına çatdırdı. Papa Fransisk Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını dövlətimizin başçısına çatdırmağı xahiş etdi.

# "Azərbaycan Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü rolunu oynayır"

*Birinci vitse-prezident Mehriban Əliyeva Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb*





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 26-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.***

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycanın Şərq ilə Qərb arasında özünəməxsus mədəniyyət körpüsü rolu oynadığı bildirildi, ölkəmizdə əsrlər boyu formalaşmış tolerantlıq ənənələri, multikultural mühit yüksək qiymətləndirildi.

Söhbət zamanı Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqun möhkəmlənməsinə verdiyi töhfələr, bununla bağlı ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, xüsusilə də Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlər, reallaşdırdığı mühüm layihələr qeyd edildi.



# Yaxın zamanlarda dərman vasitələrinin ölkəmizə gətirilməsi qaydaları sadələşdiriləcək

***Sentyabrın 26-da Nazirlər Kabinetində dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi məsələləri ilə bağlı iclas keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.***



İclasda Əli Əhmədov bildirib ki, Azərbaycanın dərman bazarının bol çeşidli preparatlarla zənginləşməsi, ölkə vətəndaşlarının keyfiyyətli dərmanlarla təmin olunması, dərman vasitələrinin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti qurumlar bir sıra yeni təkliflərlə çıxış ediblər. "Ölkəyə idxal olunan dərman vasitələrinin ilk olaraq qeydiyyatı və gömrük rəsmiləşdirilməsi şərtləri sadələşdirilməlidir", - deyən Baş nazirin müavini bunun üçün dünya təcrübəsinin öyrənilməsinin və təbiqinin vacib olduğunu vurğulayıb. Əli Əhmədov Azərbaycanda hər növdən olan dərman vasitələrinin əlçatanlığının səhiyyəmizin inkişafına təkan verəcəyini qeyd edib. "Hesab edirəm ki, dərman bazarında əlçatanlıq təmin olunmalıdır. Digər tərəfdən, dərman preparatlarının idxalı əsasən Dünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi dərmanlara istinad edilməsi meyarlarına əsaslanmalı, bütün idxal proseduru ciddi şəkildə sadələşdirilməlidir. Bunun üçün də Dövlət Gömrük Komitəsi dünya təcrübəsinə əsaslanaraq yeni təkliflərlə çıxış etməlidir. Eyni zamanda, dərmanların keyfiyyətinə nəzarət Səhiyyə Nazirliyi tərəfindən gücləndirilməlidir. Lazım gəlsə, normativ hüquqi aktlarda dəyişiklik edilə bilər. Əminəm ki, bu təkliflərin əsasında qanunvericilikdə edilən dəyişikliklər vətəndaşlarımızın həm rahatlığına, həm də sağlamlıqlarının qorunmasına xidmət edəcək", - deyə Əli Əhmədov vurğulayıb. Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, səhiyyə naziri Oqtay Şirəliyev və digər aidiyyəti qurumların rəhbərləri bu sahədə dünya təcrübəsindən yararlanaraq tez bir zamanda yeni təkliflərlə çıxış edəcəklərini bildiriblər. İclasda dərman vasitələrinin qeydiyyata alınması, ölkəyə gətirilməsi və gömrük məntəqələrində rəsmiləşdirilməsi qaydalarının qısa vaxt ərzində əsaslı şəkildə sadələşdirilməsi barədə tapşırıq verilib.

# Əli Laricani: Azərbaycan Prezidenti İlham Əliyev uğurlu xarici siyasət aparır



İran və Azərbaycan xalqları ortaq tarixə, mədəniyyətə, dinə, adət-ənənələrə malikdirlər. Bu amillər dövlətlər arasındakı əlaqələrin daha da yaxınlaşmasını şərtləndirir.

Bu sözləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində İran İslam Şurası Məclisinin (parlament) sədri Əli Laricani deyib. Əli Laricani Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşünü xatırlayaraq onun görkəmli dövlət xadimi olduğunu və Azərbaycan üçün böyük işlər gördüyünü bildirib. Qeyd edib ki, Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışarkən İrana səfər edib. Məhz Heydər Əliyevin səfərindən sonra İran-Azərbaycan münasibətləri mehriban qonşuluq xarakteri almağa başladı. Sonra Heydər Əliyev Azərbaycanın Prezidenti seçildi və İran ilə münasibətlər inkişaf mərhələsinə qədəm qoydu.

İran parlamentinin sədri Prezident İlham Əliyevin uğurlu xarici siyasət yürütdüyünü nəzərə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulması müdrik addımdır. Bu dəhliz vasitəsilə Azərbaycan Fars körfəzi sahillərinə çıxış əldə edəcək. Region ölkələrindən İrana daxil olan ixrac malları məhz Azərbaycan ərazisindən keçməklə Rusiya və Avropaya daşınacaq. Bu isə həm ölkələrimiz arasındakı əlaqələrin, həm də milli iqtisadiyyatın inkişafına güclü təkan verəcək.

Azərbaycan Prezidenti haqqında fikirlərini davam etdirən Əli Laricani Xəzər dənizinin hüquqi statusunu müəyyən edən Konvensiyanın imzalanması zamanı da İlham Əliyevin müdrik addım atdığını diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycan Prezidenti Xəzər dənizində sahilyanı dövlətlərdən başqasının hərbi iştirakına razılıq verməli və bununla da Xəzər sülh və dostluq dənizi oldu. Əli Laricani deyib ki, bu gün İran-Azərbaycan münasibətləri səmimiyyətə və qarşılıqlı etimada əsaslanır. Üçüncü qüvvənin bu mehriban münasibətlərə müdaxilə etməsinə imkan verməK olmaz.



## Elmar Məmmədyarov baş katiblə görüşüb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda Avropa Xarici Fəaliyyət Xidmətinin baş katibi Helqa Şmidt ilə görüşüb. XİN-dən SİA-ya verilən məlumata görə, görüş BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində baş tutub. Tərəflər Aİ-Azərbaycan tərəfdaşlıq münasibətləri, Azərbaycanın təşəbbüskarı olduğu və həyata keçirdiyi regional enerji və nəqliyyat layihələri üzrə geniş fikir mübadiləsi aparıb, eləcə də BMT Baş Assambleyasının 73-cü sessiyası üzrə maraq doğuran məsələləri müzakirə ediblər.

# "Paşinyan Yerevan küçələri ilə BMT-nin kürsüsünü qarışıq salıb"



"Ermənistanın baş naziri Yerevan küçələri ilə BMT Baş Assambleyasının kürsüsünü qarışıq salıb. O, yenə də beynəlxalq ictimaiyyəti uğursuz şəkildə aldatmağa cəhd göstərib. Dövlət çevrilişi yolu ilə hakimiyyətə gəlməsini, oxlokratik diktaturanın qurulmasını demokratiya kimi təqdim etməsi cəhdləri gülünc doğurur. Populizm, siyasi demoqoqiya və kütlələrin manipulyasiyası ilə məşğul olan siyasətçilərin keçən əsrin 30-40-cı illərində Avropada hansı fəsadlara yol açdığı hər kəsə yaxşı məlumdur". SİA xəbər verir ki, bu fikirləri Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın baş naziri tərəfindən BMT Baş Assambleyasının 73-cü sessiyasının ümumu müzakirələrinin mövzusuna uyğun olaraq, ölkənin inkişafı, dayanıqlı inkişaf məqsədlərinin milli səviyyədə həyata keçirilməsi, qonşu dövlətlərlə sülh şəraitində yaşamaqla bağlı heç bir fakt və ya rəqəm səsləndirilməmişdir: "Çünki bunlar yoxdur. BMT Nizamnaməsinin 2(4) maddəsini kobud şəkildə pozaraq Azərbaycana qarşı gücdən istifadə edən və ölkəmizin Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal edən Ermənistan tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar Azərbaycana qarşı əsassız ittihamlar irəli sürülmüşdür. Ermənistan öz ərazisində və işğal olunmuş torpaqlarda bir milyondan artıq köklü Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə törətmişdir".

Prezident Administrasiyasının rəsmisi deyib ki, Ermənistanın baş naziri sələflərinin siyasətini davam etdirərək təxribatçı və hərbi avantüra xarakterli addımları, ziddiyyətli və cəfəng fikirləri ilə danışıqlar prosesinin iflic hala salınmasına xidmət edir: "Bütün beynəlxalq ictimaiyyətə çox yaxşı bəllidir ki, münaqişənin həllində ən başlıca manеə Ermənistanın Azərbaycana qarşı hərbi işğalının davam etməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğudur. Hələ bu azmış kimi Ermənistanın baş naziri beynəlxalq hüquqa və BMT Nizamnaməsinə tam hörmətsizlik şəraitində işğal edilmiş ərazilərin ilhaqına çağırır. Ermənistanın baş naziri BMT-nin mənzil-qərargahında olduğu halda, münaqişənin həllinin siyasi-hüquqi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin üzərindən qəsdən sükutla keçir. Münaqişənin həllində irəliləyiş əldə etmək üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunlarını çıxarmalı, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına mane olmağı dayandırmalı və beynəlxalq öhdəliklərinə əməl etməlidir. Yalnız bu halda münaqişənin həlli, regionda davamlı sülh və sabitliyin təmin olunması mümkündür".

# "Azərbaycanda multikulturalizm, dözümlülük, qarşılıqlı hörmət artıq həyat tərzidir"

## Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi ziyafət verilib

***Sentyabrın 25-də Romada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi ziyafət verilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi ziyafətdə iştirak edib. Əvvəlcə İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndirildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə çıxış etdi.***




Birinci vitse-prezident qonaqları salamlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə nəzər saldı. Diqqətə çatdırdı ki, həmin dövrdə ölkəmiz üçün çox vacib addımlar atıldı: Azərbaycanda demokratiya institutları formalaşmağa başladı, azad seçkilər nəticəsində çoxmilli və çoxpartiyalı parlament yaradıldı, ölkəmiz üçün bir sıra vacib qanunlar qəbul edildi, milli ordumuz yarandı. "Biz ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşırıq. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi Azərbaycanda və tərəfdaş ölkələrdə geniş şəkildə qeyd olunur", - deyən Birinci vitse-prezident belə bir gecənin Azərbaycana dost olan İtaliyada, bu ölkənin gözəl paytaxtında - Romada keçirilməsindən məmnunluğunu ifadə etdi.



Bu gün Azərbaycanın zəngin, qədim tarixə və mədəniyyətə malik olduğunu, Şərqlə Qərb arasında - qədim İpək Yolu üzərində yerləşdiyini deyən Mehriban Əliyeva əsrlər boyu burada müxtəlif sivilizasiyaların, mədəniyyətlərin, dinlərin, millətlərin nümayəndələrinin sülh, qarşılıqlı hörmət şəraitində yaşadıqlarını vurğuladı. "Biz fəxr edirik ki, bu ənənələr bu gün də qorunub saxlanılır. Azərbaycanda multikulturalizm, dözümlülük, qarşılıqlı hörmət artıq həyat tərzidir", - deyən Birinci vitse-prezident bu gün ölkəmizin dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınmasının təsadüfi olmadığını, Azərbaycanda millətlərarası dialoqun qurulmasına həsr olunan bir sıra beynəlxalq tədbirlərin keçirildiyini və belə tədbirlərin BMT, UNESCO, ISESCO kimi mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini vurğuladı.



Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərdən danışan Mehriban Əliyeva müxtəlif sahələrdə əldə edilən uğurları qeyd etdi. Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun artdığını deyən Birinci vitse-prezident 2011-ci ildə ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildiyini, Azərbaycanın həm Avropa Şurasının, həm də İslam Əməkdaşlıq Təşkilatının üzvü olduğunu, 2008-ci ildə Bakı şəhərində Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin görüşünün təşkil olunduğunu, bu təşəbbüsə "Bakı Prosesi" adının verildiyini bildirdi. Vurğuladı ki, "Bakı Prosesi" xalqlar və millətlər arasında səmərəli dialoq qurmağa xidmət edir.

İtaliya-Azərbaycan münasibətlərindən danışan Mehriban Əliyeva bildirdi ki, əlaqələrimiz strateji tərəfdaşlıq əsasında inkişaf edir, həm siyasi, həm də iqtisadi sahədə uğurlu əməkdaşlıq qurulub. Bu gün Azərbaycanda çox sağlam investisiya mühitinin mövcudluğunu bildirən Birinci vitse-prezident İtaliyanın iş adamlarını ölkəmizə dəvət etdi.

Humanitar sahədəki əlaqələrə xüsusi toxunan Birinci vitse-prezident son illər Azərbaycandan İtaliyaya təhsil almaq üçün gedən tələbələrin sayının artdığını xoş hal kimi dəyərləndirdi. Həm Azərbaycanda, həm də İtaliyada qarşılıqlı mədəniyyət günlərinin keçirildiyini, müxtəlif sərgilərin, konsertlərin, görüşlərin baş tutduğunu söylədi. "Mən qeyd etmək istəyirəm ki, Romanın məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəviyə ucaldılan abidə Azərbaycan xalqı tərəfindən çox böyük hörmətlə qarşılanır və çox yüksək qiymətləndirilir", - deyən Mehriban Əliyeva bu sahədə gələcəkdə də əməkdaşlığın möhkəmlənəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın Birinci vitse-prezidenti "Milan Ekspo" sərgisində Azərbaycan pavilyonunun ən çox ziyarət edilən pavilyonlardan biri olduğunu qeyd edərək bildirdi ki, ölkəmiz "Ekspo-2025" Ümumdünya Sərgisinə ev sahibliyi etməsi üçün Bakı şəhərinin namizədliyini irəli sürüb. "Bizim bu sahədə böyük təcrübəmiz var. Bakıda, paytaxtımızda dəfələrlə böyük beynəlxalq tədbirlər keçirilib və ümidvaram ki, əgər bizim namizədliyimiz qalib gəlsə, biz gözəl bir beynəlxalq tədbir keçirməyə nail olacağıq", - deyən Mehriban Əliyeva İtaliyanın bu sahədəki təcrübəsinin əhəmiyyətini də vurğuladı.

İtaliyanın iqtisadiyyat və maliyyə naziri Covanni Trian ziyafətdə çıxışında maddi və mənəvi zənginliyə malik Odlar Yurdu Azərbaycanın böyük təbii ehtiyatlarının olduğunu diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan bu təbii ehtiyatlardan səmərəli istifadə edərək ölkənin sürətli inkişafına nail ola bilib və dünya iqtisadiyyatında mühüm rol oynayır.

Bu gün Azərbaycanda təhsilə, elmə böyük diqqətin ayrıldığını bildirən nazir cari ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edilməsinin əhəmiyyətinə toxundu. O, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycanın böyük inkişaf yolu keçdiyini, bu uğurların əsasında Azərbaycan rəhbərliyinin insan kapitalına böyük diqqət yetirdiyinin durduğunu dedi. Nazir "Ekspo-2025"ə Bakının namizədlik üçün seçdiyi mövzunun "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" olduğunu xatırladaraq onun əhəmiyyətini vurğuladı.

Azərbaycan-İtaliya əlaqələrindən bəhs edən Covanni Trian 2017-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünün qeyd olunduğunu bildirdi və bu gün ölkələrimiz arasında əlaqələrin genişləndiyini məmnunluqla vurğuladı. O qeyd etdi ki, Azərbaycan Cənubi Qafqaz regionunda çox mühüm ölkədir. Asiya ilə Avropa arasında körpü rolunu oynayan Azərbaycan sabitlik məkanıdır, qədim İpək Yolunun mərkəzindədir. Nazir bildirdi ki, bu gün Azərbaycan zəngin mədəniyyətinə, qədim adət-ənənələrinə əsaslanaraq yeni təşəbbüslərlə çıxış edir. Bu təşəbbüslər mədəniyyətlər və xalqlar arasında əlaqələrin genişlənməsinə xidmət edir.

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dair sənədli film nümayiş etdirildi. Ziyafət Azərbaycan musiqilərindən ibarət konsert proqramı və milli mətbəximizin nümunələrinin təqdimatı ilə davam etdirildi. Tədbir çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan sərgi maraqla qarşılandı.



## *Putin Qarabağın “açarını” Bakıya gətirmir...*

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Deyirlər əziz Vladimir Vladimiroviç bu gün Bakıya gəlir. Qədəmlərinə bütün MDB-nin qurban olduğu hazırkı rus “çarı”-sarışın “KQB” generalı, bu payız günlərində yolunu Bakı səmtindən salıbsa, deməli, ortada nəsə var. Vladimir Vladimiroviç məhsul bayramının qoxusuna gəlmir ki Bakıya? Sovet dövründəki məhsul bayramlarına görə burnunun ucu göynəmir bu balacaboy rus “çarının”. Düzdür, rus çarlarından üzübəri bütün Rusiya rəhbərləri Bakı neftinin qoxusundan zaman-zaman bihuş olublar. Bakı nefti həmişə Rusiyanın tarixdəki həlledici məqamlarında əsas “tutacağı” olub...***

İndi də V.Putin artıq təkcə Bakı neftinin yox, həm də, artıq Azərbaycan qazının qoxusunu Kremldəki kabinetindəcə hiss edir. Bilir bu qoxunun regionun və dünya siyasətinin xəritəsindəki sehrli rolunu. Amma çox güman ki, V.Putinin Bakı səfəri, sadəcə, cüdo yarışına baxmaq üçün vaxt öldürməyə hesablanmayıb. Belə olsaydı, bütün dünyanın monitor kimi izləndiyi Kremldəki kabinetindən də izləyə bilərdi Bakıdakı yarışları...

Niyə, Vladimir Vladimiroviç o nəhənglikdəki ABŞ-ın prezident seçkilərinə “barmaq” eləyə bilir, burdan-bura Bakıdakı cüdo yarışına boylanıb baxa bilmir? Yox, baxa bilər, hələ desən, cox məsələnin də “icabına” baxa bilər əziz V.Putin! Amma məsələ burasındadır ki, dünya siyasətinin gərgin bir vaxtında, üstəgəl amerikalıların deyimi ilə desək, ABŞ-ın V.Putinin “barmağı” ilə özünə prezident seçdiyi dəlisov Trampın sağa-sola qılınc çəkdiyi bir vaxtda, Kreml sahibinin MDB-yə gəzintiyə çıxmasının gizlin səbəbləri də var. Görünür, V.Putin hansısa strateji səviyyəli addım ərəfəsində “kəmərini bərkitmək” qərarına gəlib. Rusiya üçün vacib beynəlxalq addımlardan öncə, həmişə rus başbilənləri bu cür addım atıblar. Amma səfərin Bakıdan başlaması, ilk növbədə, həm onun yaxın vaxtlarda vacib gediş edəcəyi barədə iddiaları doğrulayır, həm də bu məsələdə Azərbaycan faktoruna xüsusi önəm verdiyini təkrarən göz önünə gətirir. Sözsüz ki, V.Putin Azərbaycana çox böyük önəm verir.

Çünki rəsmi Bakı hazırda MDB üçün Moskva qədər qiymətlidir. Təkcə qaz və neft amilinə görə yox! Həm də coğrafi mövqeləri baxımından. Amma hər bir azərbaycanlı üçün indi bu sual çox önəmlidir: Putin Bakıya hansı sürprizlərlə gəlir? Sözsüz ki, Azərbaycanın taleyi baxımından. Hər bir azərbaycanlı üçünsə, ilk növbədə, bu sürpriz deyilən məsələ Qarabağ münaqişəsinə bağlıdır. Belə deyək də, biz Qarabağın açarını, bu münaqişənin əsl sahibindən-rejissorundan istəyirik. Üstəlik, yalançı “inqilab şousu” yaradıb, Yerevan küçələrindən Serj Sarkisyanın stoluna hoppanaraq, hakimiyyəti ələ keçirən Nikol Paşinyan açıq həyasız yol seçib. Elə V.Putinlə sonuncu görüşündən sonra Qarabağ münaqişəsi ilə bağlı hədyan bəyanatlar verməyə başlayıb.

Deyir, “arxalı köpək qurd basar”. Düzdür, bu şoumen N.Paşinyan, nəinki qurd, heç çaqqal basacaq gücdə deyil. Bu, onun bacaracağı iş deyil. Çünki cilovu başqa əllərdədir... Hə, elə əsas məsələ burasındadır ki, bu quduz “inqilabçının” cilovunu arxalandığı ağasından soruşmaq lazımdır. Kimdir onun ağası? V.Putinmi, yoxsa Qərbmi? Bax, bu məsələ hələ də yarıqaranlıq zirzəmi kimidir. V.Putin Bakıya gəlməyinə gəlir. Amma özü ilə Qarabağın “açarını” gətirmir...

# “Partiyamız daha böyük və daha nəhəng uğurlara imza atacaq”

## *YAP Lerik rayon təşkilatı yaranmasının 25 illik yubileyini təntənə ilə qeyd etdi*



***Dünən Yeni Azərbaycan PartiyasıLerik rayon təşkilatının yaradılmasının 25 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Tədbir iştirakçıları öncə, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edərək, onun qarşısına gül-çiçək dəstələri düzüblər. Sonra YAP Lerik rayon təşkilatının qərargahı ilə tanışlıq olub.

Tədbiri giriş sözü ilə açan YAP Lerik rayon təşkilatının sədri Cəlil Baxşıyev ilk öncə, partiyanın rayon təşkilatının 25 illik yubileyi münasibəti ilə hər kəsi təbrik edib və təşkilatın keçdiyi yol barədə geniş məlumat verib.



Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirlib. Tədbirdə məruzə ilə çıxış edən rayon təşkilatının sədri Cəlil Baxşıyev bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası ölkəmizin müstəqilliyi uğrunda böyük və tarixi yol keçmiş və bu gün tərkibində 700 min üzvü olan nəhəng siyasi təşkilatdır. Bir sıra tarixi aspektlərə toxunan C.Baxşıyev qeyd edib ki, partiyanın yaranması çətin dövrə təsadüf edib: “Həmin ərəfələrdə Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Müstəqilliyimiz təhlükə altına düşmüşdü. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq, ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Məhz bu səbəbdən də, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında bir qrup ziyalı “Səs” qəzeti vasitəsilə Ona müraciət ünvanladılar”. “21 noyabr 1992-ci ildə Naxçıvanda YAP-ın təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi” deyə qeyd edən YAP Lerik rayon təşkilatının sədri leriklilərin də bu tarixi prosesə qoşulduğunu və Dahi Şəxsiyyət Heydər Əliyev ideologiyasına sədaqətli olduğunu bildirib: “Bu gün həmin siyasət ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyev tərəfindən uğurla aparılır və inkişaf etdirilir. Bunun nəticəsidir ki, müstəqil və müasir Azərbaycan dünyanın aparıcı ölkələri sırasında yer almaqdadır. Söz yox ki, əldə edilən hər bir uğurda, hər bir nailiyyətdə YAP-ın danılmaz və tarixi rolu vardır”.

Məruzədən çıxış edənlər - YAP Lerik rayon təşkilatının aparat rəhbəri Elxan Qənbərov, ilk partiya təşkilatının sədri, şura üzvü Fərman Həşimov, rayon Ağsaqqallar Şurasının sədri Həmzə Vəlimməmmədov, YAP Lerik rayon təşkilatının qadınlar şurasının üzvü Şəhla Məmiyeva bildiriblər ki, partiyanın əldə etdiyi hər bir nailiyyət Azərbaycan dövlətinin və xalqının nailiyyətidir və ötən illər ərzində qazanılmış uğurlar, bilavasitə Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin apardığı mütərəqqi, qətiyyətli və məqsədyönlü siyasətinin məntiqi nəticəsidir. Tədbirdə çıxış edən Lerik RİH-in başçısı Rövşən Bağırov qeyd edib ki, Azərbaycanın tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixin başlanğıc nöqtəsi sayılır: “Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla Azərbaycanın tarixində yeni dövr başladı”.

Natiq qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 25 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmayıblar: “Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan YAP möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasıdır. Çünki Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir”.

Millət vəkili İqbal Məmmədov isə çıxışında bildirib ki, YAP ölkəmizin ən böyük siyasi qüvvəsidir: “Partiya müstəqillik tariximizlə yanaşı addımlayır və ölkəmizin qazandığı uğurlarda özünün böyük töhfələrini verib”.

İqbal Məmmədov müstəqillik illərində Azərbaycanın bütün sahələrinin inkişaf etdiyini, beynəlxalq müstəvidə böyük nüfuz qazandığını vurğulayıb.

“Səs” qəzetinin Baş redaktoru Bəhruz Quliyev də öz çıxışında partiyanın yaranma tarixindən, onun ölkəmizə və xalqımıza göstərdiyi tarixi xidmətindən bəhs edərək, YAP-ın Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olduğunu vurğulayıb: “YAP ölkəmizin siyasi həyatında uğurla fəaliyyət göstərir və bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlər qazanır. Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox mühüm uğurlar qazanıb və bundan sonra da inamla irəliləyən partiyamız daha böyük və daha nəhəng uğurlara imza atacaq”.

Bəhruz Quliyev YAP Lerik rayon təşkilatının gələcək fəaliyyətinə yeni-yeni nailiyyətlər qazanmağı arzulayaraq, bu təşkilatın 25-ci ildönümü münasibəti ilə hər kəsi təbrik edib.

YAP Mərkəzi Aparatının məsul əməkdaşı Emin Abbasov da, öz növbəsində, təbriklərini çatdıraraq bildirib ki, bu gün Ulu Öndər Heydər Əliyev strategiyası Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyev tərəfindən uğurla davam edirilir. “Bu uğurun təməlində güclü Azərbaycan dövləti dayanır” deyə natiq bildirib.

Çıxışlardan sonra YAP Lerik rayon təşkilatının bir qrup fəalına diplom və qiymətli hədiyyələr təqdim olunub, yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri verilib. Təqdimatlardan sonra Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə müraciət qəbul olunub.

Tədbir rayon təşkilatının yaradılmasının 25 illik yubileyinə həsr edilmiş konsert proqramı ilə davam etdirilib.

**R.RƏSULOV**

# YAP Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib



***Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının idarə heyətinin iclası keçirilib. İclasda YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək, gündəlikdəki məsələləri diqqətə çatdırıb.***

Ş.Hacıyev Azərbaycanın uğurlu siyasi-iqtisadi inkişafından bəhs edərək Azərbaycan Cümhuriyyətinin 100 illiyi ilə bağlı Silahlı Qüvvələrin 100 illiyinə həsr olunan hərbi paradla bağlı fikirlərini bildirib. YAP Səbail rayon təşkilatının sədri qeyd edib ki, "keçirilən hərbi paradda Prezident İlham Əliyevin apardığı siyasətin uğurlu nəticələri bir daha özünü göstərdi".

Hərbi paradda Azərbaycan Ordusunun qüdrətinin dünyaya nümayiş etdirildiyini deyən Ş.Hacıyev vurğulayıb ki, Silahlı Qüvvələrimiz müasir tipli hərbi texnika ilə təchiz olunub. Ordumuzun yüksək peşəkarlığı özünü döyüş meydanında da sübut edir: "Azərbaycan dövləti, ardıcıl olaraq, böyük uğurlara imza atdığı halda, Ermənistanda siyasi böhran getdikcə daha da dərinləşir".

Daha sonra Ş.Hacıyev Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 27-ci, Yeni Azərbaycan Partiyasının yaranmasının 26 illik və Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı keçirilən konfransın materiallarından ibarət toplunun hazırlanması işləri haqqında da məlumat verib.

İclasda, həmçinin, növbəti məsələ - YAP Səbail gənclər birliyi və qadınlar şurasının hesabat-seçki yığıncaqlarının keçirilməsi ilə əlaqədar hazırlıq işləri barədə də məlumat verilib.

Sonda ərazi ilk partiya təşkilatlarında görülən işlərin hesabatı səslənib, yeni təsis olunan ərazi ilk partiya təşkilatlarından daxil olan müraciətlərə baxılıb, daha sonra isə cari məsələlər müzakirə edilib.

***Rəfiqə KAMALQIZI***



## "Azərbaycan kosmik məkanda özünəməxsus yerə malik nadir ölkələrdəndir"

"Azərbaycan artıq dünyanın kosmik klubunun üzvünə çevrilib və kosmik məkanda özünəməxsus yerə malik olan nadir ölkələrdən biridir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Azərbaycanın inkişafı, iqtisadiyyatının şaxələndirilməsi, diversifikasiyası, qeyri-neft sektorunun inkişafı ilə bağlı Prezident İlham Əliyevin yürütdüyü siyasət kosmik sənayedə də öz əksini tapıb.

Son illər ərzində Azərbaycan tərəfindən orbitə 3 peyk buraxıldığını deyən A.Badamov söyləyib ki, bu gün ölkəmiz peyk vasitəsilə dünyanın bir çox ölkələrinə xidmətlər göstərir. "Azərspace 2" peykinin orbitə çıxarılması Azərbaycan iqtisadiyyatına bir sıra gəlirlər gətirəcək. Təbii ki, iqtisadi inkişafa malik olan ölkələr kosmik orbitə sahib ola bilirlər. Bu gün Azərbaycanın iqtisadi inkişafa malik olan ölkələr sırasında olduğunu nəzərə alsaq, peyklərimizin kosmosda fəaliyyət göstərməsi ilə ölkəmiz həm də dünyanın kosmik sənayesində öz mövqelərini möhkəmləndirir. Bütün bunlar əlbəttə ki, Azərbaycan Prezidentinin həyata keçirdiyi düzgün siyasətlə bağlıdır", - deyə deputat qeyd edib. A.Badamov vurğulayıb ki, orbitə çıxarılan peyklərin funksiyası fərqlidir: "İlk orbitə buraxılan Azərbaycan peykinin əsas funksiyası televiziya və radio yayımı ilə bağlı idisə, digər iki peyk iqtisadiyyatın digər sahələrinə xidmət edəcək. Bu peyklər həm də Azərbaycanın təhlükəsizliyi baxımında da önəmlidir".

## Berlin və Sankt-Peterburq arasında birbaşa dəmiryol əlaqəsi yaradılacaq

Almaniyanın Berlin və Rusiyanın Sankt-Peterburq şəhərləri arasında birbaşa dəmiryol əlaqəsi təşkil olunacaq. AZƏRTAC xəbər verir ki, bu barədə "İzvestiya" qəzeti Almaniya Nəqliyyat Nazirliyinə istinadla məlumat yayıb. Qəzetin yazdığına görə, yeni marşrut Kalininqrad şəhərindən keçəcək. Dəmir yolu əlaqəsinin yaradılmasında Baltikyanı ölkələrdə və Polşada mövcud olan hazır xətlərdən istifadə ediləcək. Yeni marşrut Peterburqdan Kalininqrada qədər olan məsafənin iki dəfə az vaxt ərzində qət etməyə imkan verəcək.

## Vüqar Rəhimzadənin məqaləsi Polşanın "Thompson Reuters" indeksli jurnalında

"İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, Bakı Slavyan Universitetinin dosenti Vüqar Rəhimzadənin yeni elmi məqaləsi Polşada nəşr olunan "Thompson Reuters" indeksli "Journal of Juristic Papyrology" jurnalında dərc olunub. Məqalədə Azərbaycanda demokratik cəmiyyətin əsas atributlarından biri kimi mətbuatın inkişafına göstərilən diqqət və qayğıdan, medianın müstəqil ictimai institut kimi formalaşmasının elmi əsaslarından bəhs edilir. Qeyd olunur ki, KİV cəmiyyətin siyasi sisteminin mühüm tərkib hissəsi kimi dövlət və cəmiyyət arasında mühüm əlaqələndirici funksiyanı yerinə yetirir. Bu gün mətbuat cəmiyyətdə sabitləşdirici rola malikdir və sosial dəyişikliklərin təkanverici qüvvəsi kimi çıxış etməyə qadirdir. Bu da öz növbəsində dövlətin informasiya siyasətinin əhəmiyyətini müəyyən edir. Cəmiyyətin informasiya tələbatının ödənilməsi funksiyasını yerinə yetirən mətbuat zamanın, dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşir, yeni-yeni vəzifələrin icrasına öz töhfəsini verməyə çalışır. Ən ciddi dəyişikliklər hər şeydən öncə informasiyanın təsir imkanlarının qlobal miqyasda güclənməsi ilə əlaqədar olaraq dövlət sərhədlərinə və auditoriyanın milli fərqlərinə məhəl qoymayan televiziyada baş verir. Bu, daha aşkar formada internet sistemində nəzərə çarpır. Bütün planet miqyasında vahid informasiya məkanının bərqərar olması müasir mərhələdə informasiya sənayesinin obyektiv zəruriliyidir.




Müəllif diqqətə çatdırır ki, Azərbaycan dövləti elmin inkişafının və iqtisadiyyatın texnoloji cəhətdən modernləşdirilməsinin ən perspektivli istiqamətlərini müəyyənləşdirib. Yüksək rəqabətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunu genişləndirmək, infrastrukturun modernləşdirilməsi, sahələr üzrə təkmil islahatların həyata keçirilməsi Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edən əsas amillərdir. Bu istiqamətdə mühüm addımlardan biri məhz ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin kosmik sənayenin inkişafına göstərdiyi dəstəkdir.

Müəllif yazır ki, informasiya sahəsindəki siyasət daha az öyrənilmiş və daha çox mürəkkəb olan siyasi fəaliyyət növüdür. Ən yeni informasiya və telekommunikasiya texnologiyalarının inkişafı özü ilə təkcə texnoloji innovasiyalar, elm tutumlu istehsala keçid və s. gətirmir, həmçinin insan məskəninin bütün informasiya mühitini, ictimai həyatın bütün sosiomədəni məzmununu kökündən dəyişir, informasiya sahəsini cəmiyyətdə üstün mövqeyə çıxarır.

Azərbaycan mətbuatının keçdiyi inkişaf yolunun, yeni texnologiyaların inkişafı fonunda əldə olunan uğurların əks edildiyi məqalədə bildirilir ki, bu gün İKT Azərbaycanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin inkişafı, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin aradan qaldırılması, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişafı üçün əlverişli vasitə olaraq qəbul edilir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır. Böyük maraq doğuran məqalədə bir daha Azərbaycan mətbuatının dünya informasiya məkanına inteqrasiyasından və çoxsaylı nailiyyətlərindən geniş bəhs edilir.

# Ermənistan indi də "İsrail olmaq" fikrinə düşüb

## *Erməni KİV-ləri xam xəyallara dalaraq, erməni xalqına "təskinlik" verirlər*



***Azərbaycanın siyasi, iqtisadi, hərbi və s. istiqamətlərdə sürətlə irəliləməsi, o cümlədən, bir sıra dünya miqyaslı layihələrdə təşəbbüskar və iştirakçı rolunu alması get-gedə erməni siyasi-ictimai rəyini ciddi şəkildə narahat etməkdədir. Artıq işğalçı ölkənin müxtəlif dairələrində çıxış yolları axtarılır, qarşılarında olan gücdən necə yayınmaq üzərində "başlar sındırılır". Hətta vəziyyət o həddə qədər gedib-çıxıb ki, utopik və xam xəyallara söykənən "ideyalar" səsləndirilir.***

"Armenian report" saytının analitik bölməsində gedən müəllif yazısında Ermənistanın "İsrailə çevrilmək" məsələsi qabardılıb.

"Bizə yeni İsrail olmaq lazımdır" başlıqlı yazıda bildirilir ki, yalnız bu halda ölkənin xilası mümkün ola bilər və ayrı yol da yoxdur. SİTAT: "Müharibəni heç kim, heç vaxt anidən başlamır. Bu və ya digər ölkəyə hücum müəyyən zondaj nəticələrlə müşahidə edilir ki, mövcud addımdan sonra sənə müharibənin əvvəlində kimlərin dəstək verdiyi məlum olur". Beləliklə, beynəlxalq aləmin, məhz Azərbaycanın ərazi bütövlüyünü tanımasına işarə edən erməni müəllifə görə, artıq onlara (erməni tərəfinə-R.R.) açıq-aydın bəllidir ki, Azərbaycan dövləti öz torpaqlarını işğaldan azad etmək üçün müharibəyə başlaya bilər. Bu mənada, rəsmi Bakının son illər apardığı uğurlu diplomatiyaya da eyham vuran müəllif yazır: "Və burada bir amilə diqqət yetirmək lazımdır ki, rəsmi Bakı siyasi müstəvidə dünyanın müxtəlif dövlətləri ilə necə fəal iş aparır".

### "Təəssüf ki, ABŞ və Avropada, eləcə də Çində və Rusiyada Ermənistan və "Artsax"la silah gücü ilə danışan ölkə ilə münasibətlərin inkişafının vacibliyi barədə fikirlər vurğulanır"

Həmçinin, güclü orduya malik olan ölkəmiz nəzərdə tutulur və bildirilir ki, beynəlxalq aləm bütün sahələrdə tərəqqi edən Azərbaycanla əməkdaşlığa can atır. "Təəssüf ki, ABŞ və Avropada, eləcə də, Çində və Rusiyada Ermənistan və "Artsax"la silah gücü ilə danışan ölkə ilə münasibətlərin inkişafının vacibliyi barədə fikirlər vurğulanır", "Armenian report"un siyasi bölməsində qeyd olunur, eləcə də, Yerevanla Moskva arasındakı soyuq münasibətlərə toxunulur: "Bütün bunlar təəssüf ki, bütövlükdə, Yerevanla Moskva arasındakı soyuq münasibətləri sübut edir, həmçinin, Qərbin Bakını hərbi ritorikadan yayındırmaq cəhdinə marağının olmadığını göstərir".

### "ADEX-2018" sərgisindən doğan gerçəklik: "Biz artıq Azərbaycandan qaçılmaz yeni müharibə barədə fikirlər eşidirik"

Erməni müəllif Azərbaycan Prezidenti İlham Əliyevin zaman-zaman işğalçı rejim rəhbərliyinə qarşı verdiyi sərt və qətiyyətli bəyanatlara işarə edərək yazır: "Nəticədə biz, artıq Azərbaycandan qaçılmaz yeni müharibə barədə fikirlər eşidirik. Üstəgəl, orada (Azərbaycanda-R.R.) hər yerdə hərbi təlimlər keçirilir və aydındır ki, bunu təlim xətrinə deyil, bizimlə (işğalçılarla - R.R.) yeni müharibəyə başlamaq üçün edirlər. Lakin bu da son deyil. Kifayət qədər ölkələr var ki, bizimlə müharibədə Azərbaycana kömək etməyə hazırdırlar və bu, heç də sakit siyasi dəstək olmayacaq".

Qeyd edilən fikirləri sübut etmək üçün analitik-müəllif Bakıda keçiriləcək "ADEX-2018" sərgisinə toxunub.

### Erməni analitik Rusiyanın "bostanına" da "daş" atmağı unutmayıb: "Rusiya KİV-ləri Ermənistanı işğalçı ölkə olaraq göstərir"

"Sən demə, Bakıda, Ekspo-Mərkəzdə keçiriləcək "ADEX-2018" sərgisində müxtəlif ölkələrdən 200 şirkətin iştirakı gözlənilir. "ADEX-2018"də Azərbaycandan, Türkiyədən, Fransadan, Rusiyadan, İsraildən, Belarusdan, Pakistandan, Serbiyadan, Ukraynadan və s. ölkələrdən milli qruplar iştirak edəcək. İştirakçı ölkələrin müdafiə komplekslərinin şirkətləri arasında Bolqarıstan, Çin, İtaliya, Litva, Niderland və başqa dünya ölkələri də var. Onlar bizim üçün kimlərdirlər? Düzdür, Azərbaycanı sözdə deyil, əməldə yeni müharibədə dəstəkləyəcək dövlətlər".

Beləliklə, daxillərindəki qorxunu açıq-aşkar büruzə verən işğalçı ölkənin mediası və ictimai rəyi iddia edir ki, həmin dövlətlərə böyük pullar əldə etmək lazımdır və erməni əsgərlərinin öldürülməsi onları qətiyyən maraqlandırmır. Müəllif bu dəfə də anti-Rusiya xarakterli çıxışa yol verərək, rəsmi Kremlin "bostanına daş atır" və yazır ki, bu məsələdə, xüsusilə, Rusiya daha fəal görünür: "Onlar (Rusiya-R.R.) Azərbaycanı silahla təmin etməkdə davam edirlər və bunu bizim müttəfiqimiz ola-ola reallaşdırırlar. Eləcə də, Rusiya mətbuatı, artıq Azərbaycanın tərəfində olduğunu açıq-aşkar yazır. Ermənistan isə, həmin KİV-lərdə mümkün hücuma məruz qalan ölkə kimi deyil, işğalçı kimi göstərilir..."

### Türkiyə faktorundan doğan qorxu: "Ərdoğanın bu yaxınlarda verdiyi bəyanat təsdiq edir ki, Ankara baş verə biləcək yeni müharibədə həmin istiqamətdəki hərəkətlərini davam etdirmək fikrindədir"

Digər maraqdoğurucu nüans Türkiyə ilə bağlıdır. "Türkiyə haqqında danışmağın mənası da yoxdur" qeyd edən erməni müəllif yazır ki, bu ölkə hər zaman və bütün məsələlərdə Azərbaycanı dəstəkləyib. Buna misal olaraq, Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatı göstərilir: "Ərdoğanın bu yaxınlarda verdiyi bəyanat təsdiq edir ki, Ankara baş verə biləcək yeni müharibədə həmin istiqamətdəki hərəkətlərini davam etdirmək fikrindədir".

Erməni müəllif qorxusunu daha da izafiləşdirərək, hətta iddia edib ki, guya bu məsələdə türk əsgərləri də iştirak edə bilərlər. "Bəs NATO necə olacaq? Belə ki, Türkiyə, görünür, buna görə bəyan edir ki, alyansdan çıxmağa hazırdır" deyə erməni analitik yazarı bildirir.

### İsrail reallığı: "İsrailin müdafiə naziri Liberman bir neçə gün Bakıda olub və ölkə rəhbərliyinə çoxsaylı komplimentlər edib, həmçinin, belə bir fikir irəli sürüb ki, ölkələr arasındakı əməkdaşlığı inkişaf etdirmək vacibdir"

Ancaq sözügedən məsələnin daha bir tərəfinə toxunan erməni müəllif bu dəfə İsrail faktoruna toxunub. "Axı İsrail də var" deyə yazan analitik xatırladıb ki, bu dövlətin hərbi şirkəti olan "Israel Military" Bakıda keçiriləcək "ADEX-2018" sərgisində istehsal etdiyi silahları, hərbi sursatları, eləcə də, raket və zirehli texnikaları ilə yanaşı, Rampage adlandırılan səsdən sürətli raketini də təqdim edəcək: "Buna qədər xatırlatmaq istərdim ki, İsrailin müdafiə naziri Liberman bir neçə gün Bakıda olub və ölkə rəhbərliyinə çoxsaylı komplimentlər edib, həmçinin, belə bir fikir irəli sürüb ki, ölkələr arasındakı əməkdaşlığı inkişaf etdirmək vacibdir. Bundan əlavə, Bakıdakı Şəhidlər Xiyabanını ziyarət edib..."

### "Armenian report": "Vəziyyət çox kədərlidir..."

Bu vasitə ilə İsrailin də Ermənistana mesaj verdiyini iddia edən erməni müəllif vəziyyətin ermənilər üçün kədərli olduğunu yazıb və nə qədər maraqlı görünsə də, Ermənistanın "İsrailə çevrilməli vacibliyi" barədə sərsəm xəyallara dalıb: "Göründüyü kimi, mövcud vəziyyət çox kədərlidir. Situasiyanın təhlükəli olduğunu nəzərə alaraq, qarşımızda yeni imkanlar açılır və yardımımıza İsrail nümunəsi gələ bilər. Bu dövlət onilliklər boyu düşmən əhatəsində olmasına baxmayaraq, regionun ən qüdrətli ölkəsinə çevrilib. İsrail artıq Rusiyanın hərbi təyyarələrini vurmaqdan çəkinmir, bunun yerinə isə Rusiyanın narazılığına qarşı müəyyən təəssüfedici fikirlər səsləndirməklə kifayətlənir".

"Bizə "yeni İsrail olmaq lazımdır" deyə utopik düşüncələrə dalan ac və böhranlar içində çabalayan işğalçı Ermənistanın KİV nümayəndəsi xilaslarının, məhz bu yolla reallaşacağını xəyal edir və başqa yollarının olmadığını da bildirir.

Göründüyü kimi, Ermənistanın aparıcı KİV-lərindən olan "Armenian report"un siyasət yazarı da anlayır ki, artıq onun ölkəsi çıxılmaz durumdadır və yeni hökumət, hətta onu əvəzləyəcək digər hakimiyyətlər də işğalçı ölkəni düşdüyü ağır və sarsıdıcı vəziyyətdən qurtara bilməyəcək. Yəqin, ermənilərin indi də bu stildə özlərinə təskinlik verməkdən başqa əlacları qalmayıb.

***Rövşən RƏSULOV***

## Aşotyan: "Paşinyan küçələri bağlaya bilər, amma ağızları əsla"



Ermənistan Respublikasının Respublikaçı Partiyası (RPİ) sədrinin müavini, Milli Məclisin Xarici əlaqələr komitəsinin sədri Armen Aşotyan Baş nazir Nikol Paşinyanın BMT Baş Assambleyasının 73-cü sessiyasında çıxışını şərh edib. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, Aşotyan ölkəsinin baş nazirinin çıxışına narazılığını ifadə edərək onun BMT tribunasından Ermənistanda mövqelərini möhkəmləndirmək üçün istifadə etdiyini vurğulayıb. "Təəssüf ki, Nikol Paşinyan BMT tribunasından Ermənistanın təhlükəsizliyi və milli məsələlərlə bağlı deyil, yalnız mövqelərini möhkəmləndirmək üçün istifadə etdi. Paşinyan Ermənistanın bundan əvvəlki hakimiyyətini qınamaq və avtoritar adlandırmaqdan əvvəl, hakimiyyətin sülh yolu ilə dəyişdirilməsi zamanı əsas beynəlxalq aktorların Ermənistanla bağlı fikirlərini yada salmalıdır. Lakin Milli Məclisdə erkən seçkilərə diqqət yetirdikdə görərik ki, bu ölkənin təhlükəsizliyinə, daxili sabitliyə, eləcə də bütün sonrakı orqanların konstitusiyalılığına dağıdıcı zərbə vuracaq. Nəticədə onu deyə bilərəm ki, siz küçələri bağlaya bilərsiniz, amma ağızları əsla", - deyə Aşotyan qeyd edib.

## Dəfn zamanı bu normaları pozanlar cərimələnəcək



Azərbaycanda dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarını pozanlara cərimə tətbiq olunacaq. SİA xəbər verir ki, bununla əlaqədar İnzibati Xətalar Məcəlləsinə dəyişiklik təklif olunur. Məcəlləyə əlavə edilən yeni - 516-1-ci (Qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulması) maddəsinin 2-ci bəndinə əsasən, qəbiristanlıqların qorunması tələblərinin, habelə dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına görə fiziki şəxslər 20 manatdan 50 manatadək məbləğdə, vəzifəli şəxslər 500 manatdan 1000 manatadək məbləğdə cərimə olunacaqlar.




# 27 Sentyabr Beynəlxalq Turizm Günüdür

*Bu gün 27 Sentyabr Beynəlxalq Turizm Günü kimi qeyd olunur. 1980-ci ildən Birləşmiş Millətlər Beynəlxalq Turizm Təşkilatı 27 sentyabrı Beynəlxalq Turizm Günü kimi qeyd edir. Məqsəd beynəlxalq aləmdə turizm haqda məlumatlanmanı artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Hər il Beynəlxalq Turizm Günü müxtəlif şüarlar altında həyata keçirilir. Müasir dövrümüzdə dinc yanaşı yaşamaq uğrunda mübarizə aparan dünyada turizm körpülərinin qurulmasına və sülhün möhkəmlənməsinə səbəb ola bilər. Turizmin inkişaf prosesi qlobal həmrəyliyin formalaşmasına töhfələrini verir. BMT-nin Baş Assambleyasında təsdiq edilmiş ekoloji baxımdan təhlükəsiz və məsuliyyətli turizmin bu rəhbər prinsipləri zamanla yoxlanılmış turizm və sülh, insan haqları və qarşılıqlı anlaşma arasındakı əlaqəyə əsaslanır.*

### AZƏRBAYCANDA MİLLİ TURİZM KOMPLEKSİNİN RƏQABƏTƏ DAVAMLILIĞI YÜKSƏLDİLİB

Hər il Azərbaycanda 27 Sentyabr Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün təşkil olunan tədbirlər çərçivəsində, müxtəlif mövzularda - turizm sahəsində mövcud problemlər və onların həlli yollarının müzakirəsi, turizm sahəsində xidmət səviyyəsinin yaxşılaşdırılması, turizm infrastrukturunun yaradılması və s. mövzularında turizm konfransları da keçirilir. Reallaşan dövlət proqramları, həyata keçirilən islahatlar turizmin inkişafına səbəb olan amillərdir. Eyni zamanda, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları turizm siyasətinin həyata keçirilməsinə əsaslı dönüş yaradıb. Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu.

### ÖLKƏ BAŞÇISININ TURİZM SAHƏSİNƏ AYIRDIĞI DİQQƏT AZƏRBAYCANIN BEYNƏLXALQ ARENADA TURİZM POTENSİALINI NÜMAYİŞ ETDİRMƏYƏ ŞƏRAİT YARADIR

Ölkədə baş verən inkişafın nəticəsidir ki, bu gün Azərbaycana dünyanın müxtəlif ölkələrindən olan insanlar turist kimi səfər edirlər. Ölkə başçısının Azərbaycanda turizm sahəsinə ayırdığı diqqət və qayğı Azərbaycanın beynəlxalq arenada öz turizm potensialını nümayiş etdirməyə şərait yaradır. Bunun müqabilində Azərbaycana gələn turistlərin axını artır. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

Turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də, xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirildi. Turist axını çox olan rayonlarda turist düşərgələrinin təşkil edilməsi, turizm sahəsində fəaliyyət göstərən orta və kiçik sahibkarlara dəstək məqsədi ilə təyinatlı və güzəştli kreditlərin ayrılması bu sahədə nailiyyətlərin əldə olunmasına səbəbdir.

Turizm sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Sazişlər də turizmin inkişafına təsirini göstərməkdədir. Belə ki, son illər ərizində Azərbaycanla Moldova, Belarus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya, Fransa, Tacikistan, Misir, Litva Respublikası və başqa dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişlər bağlanmışdır. İmzalanmış Sazişlərin müddəalarının həyata keçirilməsi ilə əlaqədar, mütəmadi olaraq, tədbirlər görülür və digər ölkələr ilə turizm sahəsində ikitərəfli əlaqələrin qurulması istiqamətində müvafiq işlər aparır. Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya Respublikası, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman Sultanlığı, Macarıstan, Koreya, İsveçrə, Yaponiya, İndoneziya, Bruney Krallığı, Malayziya, San-Marino, Mərakeş, Argentina, Meksika, Makedoniya, İsveç, Filippin, Kuba və Xorvatiya arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş layihələri hazırlanmışdır. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin, turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin Turizm Şurası, Demokratiya və İqtisadi İnkişaf Naminə - GUAM təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarla Azərbaycan arasında təklif və layihələr hazırlanıb. Ən əsası isə, Azərbaycan Ümumdünya Turizm Təşkilatının üzvü kimi təşkilat tərəfindən təşkil edilən bir çox tədbirlərdə, o cümlədən, Baş Assambleyalarda, Avropa üzrə Komissiyanın iclaslarında, tədris kurslarında və seminarlarda iştirak edir.

Dövlət başçısının 2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına və 2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi haqqında Fərmanına əsasən, ölkəmizin turizm sektorunun inkişafını təmin etmək məqsədilə bir sıra mühüm işlər görülür. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə sektorun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması xüsusi yer tutur. Təkcə bu ilin yanvar-avqust ayları ərzində, Azərbaycana dünyanın 193 ölkəsindən 1 milyon 976,9 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə, 8,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Turizm sahəsində olan uğurların davamlığının təminində, əlbəttə ki, ölkələr arasında birbaşa aviareysin açılması da mühüm faktorlardan biridir. Qarşıdan gələn qış mövsümündə Bakıdan Misirə, Şarm əl-Şeyxə birbaşa çarter reyslər açılacaq. Bu, Azərbaycan tərəfindən mütəmadi həyata keçirilən ikinci belə reys olacaq. İlk belə reys Monteneqroya təşkil edilib. İki ölkə arasında birbaşa aviareysin açılması turist mübadiləsinin artmasına və turizm əlaqələrinin möhkəmlənməsinə təkan verərək, işgüzar əlaqələrin inkişafı üçün də zəmin yaradacaq.

Son illər Azərbaycanda turizm sənayesinin inkişafı istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir. Yaradılan yeni turizm müəssisələri, xidmət səviyyəsinin yüksəldilməsi ölkəmizə gələn xarici turistlərin sayının da ildən-ilə artmasına təsirini göstərir. Bu, ölkəmizdə turizm sənayesinin inkişafının göstəricisidir. Elə bu günlərdə "TurStat" Analitik Agentliyi MDB-yə üzv olan və yaxın xaric ölkələrin ən məşhur dağ-xizək kurortlarının 2019-cu il üçün siyahısını açıqlayıb. Qış istirahəti üçün ən yaxşı dağ-xizək kurortlarının ilk üçlüyünə Qazaxıstan, Gürcüstan və Azərbaycan kurortları daxil edilib. Reytinqdə ilk üç yeri Qazaxıstanın Çimbulak, Gürcüstanın Qudauri və Azərbaycanın "Şahdağ" kurortu tutub. "Tufandağ" 9-cu yerdədir.

Reytinq 2018-2019-cu qış mövsümü ərzində turist səfərlərinin proqnozlaşdırılan nəticələrinə uyğun olaraq, tərtib edilib. Ölkənin, bütün sahələrində olduğu kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində, Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib.

**Zümrüd BAYRAMOVA**

## 1582 namizəd müəllim adını qazanıb



2018-2019-cu tədris ili üçün Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müddətli müqavilə ilə müəllimlərin işə qəbulunun üçüncü turu üzrə elektron yerləşdirmənin nəticələri açıqlanıb. Bu barədə məlumat namizədlərin şəxsi səhifələrinə göndərilib. Nazirlikdən SİA-ya verilən məlumata görə, müddətli müqavilə ilə müəllimlərin işə qəbulu üzrə elektron yerləşdirmə zamanı 1582 namizəd uğur qazanıb.

Müəllim adını qazanmış şəxslər sentyabrın 27-dək zəruri sənədləri (şəxsiyyəti təsdiq edən sənədin, ali və ya orta ixtisas təhsili haqqında sənəd və ona əlavənin surəti, əmək kitabçasının əsli (olduğu təqdirdə), 3x4 ölçüdə fotoşəkil, sağlamlıq haqqında arayış, kadrlar uçotunun şəxsi vərəqəsi) aidiyyəti Ərazi Maliyyə Hesablaşma Mərkəzinə təqdim etməlidirlər. Müddətli müqavilə ilə müəllimlərin işə qəbulu zamanı boş qalan yerlərə növbəti turun oktyabrda keçirilməsi nəzərdə tutulub.

## Rusiyalı balet ustaları Bakıda çıxış edəcək

Oktyabrın 27-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Qu gölü" baleti təqdim olunacaq. Teatrın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səhnə əsərində əsas rolları Rusiya Dövlət Akademik Böyük Opera və Balet Teatrının aparıcı solistləri, balet artistlərinin beynəlxalq müsabiqələrinin laureatları Alyona Kovalyova (Odetta-Odilliya) və Yakopo Tissi (Şahzadə Ziqfrid) ifa edəcəklər.

Rusiyalı balet ustaları ilə yanaşı, teatrın solistləri - Xalq artisti Gülağası Mirzəyev, Əməkdar artistlər Samir Səmədov, Nigar İbrahimova, Makar Ferştandt, aparıcı solistlər Elmira Süleymanova, Cəmilə Kərimova, Ayan Eyvazova da baletdə rol alacaq, solo partiyalar və rəqslər ifa edəcəklər. Səhnə əsərini Xalq artisti, professor Cavanşir Cəfərov idarə edəcək.

# Arif Hacılı İqbal Ağazadənin hədəfində

*"Ümid" partiyası: "Görəsən, Müsavat hakimiyyətdən nə qədər vəsait alır ki?.."*

Dağıdıcı müxalifət düşərgəsində davam edən gərginlik vaxtilə uzun müddət bir arada fəaliyyət göstərmiş və demək olar ki, bir-birlərinə qarşı ittiham irəli sürməyən partiyalara da sirayət etməyə başlayıb. Bu dəfə "Ümid" partiyasının sədri İqbal Ağazadə partiyasındakı funksionerləri vasitəsi ilə, sosial şəbəkələrdə Müsavat partiyasının başqanı Arif Hacılını hakimiyyətə işləməkdə ittiham edərək, təşkilatı siyasi fəaliyyətsizlikdə suçlayıb.



Lakin buna qədər "Ümid" partiyası Müsavatla uzunmüddətli əməkdaşlıq etdiyini də nəzərə alarsaq, bu zaman "Ümid" sədrinin nəyə görə birdən-birə A.Hacılıya qarşı hücuma keçməsi təəccüb doğurur. Hətta onu da xatırlaya bilərik ki, vaxtilə Müsavatın funksionerləri sırasına daxil olmuş sabiq müsavatçı, "Yeni Müsavat" qəzetinin baş redatoru Rauf Arifoğlu rəhbərlik etdiyi qəzetində nümayişkaranə tərzdə "Ümid" partiyasının fəaliyyətini təbliğ edən bülleten də buraxdırırdı ki, bu amil də hər iki partiyanın eyni mövqedən çıxış etməsinin göstəricisi kimi qiymətləndirilirdi.

### "Ümidçilər" indi də düşərgədaxili böhran məsələsini ortaya ataraq, "birləşmək" təklifləri irəli sürsələr də...

Onu da qeyd edək ki, bütün bunlar Müsavatın sabiq başqanı İ.Qəmbərin dövründə idi və görünür, onu saxta seçkilər vasitəsilə əvəzləmiş A.Hacılı eyni münasibəti saxlamağı bacarmayıb. Xüsusilə, R.Arifoğlunun və "Yeni Müsavat" qəzeti əməkdaşlarının Müsavat partiyasından istefa verməlırindən sonra "Ümid"-Müsavat münasibətlərinə, demək olar ki, son qoyuldu. Amma buna baxmayaraq, Ağazadə müəyyən pərdəni saxlayaraq, müsavatçılara qarşı sərt fikirlərlə çıxış etmirdi. Bu baxımdan, onun birdən-birə belə bir mövqe sərgiləməsi müxalifət cameəsini, xüsusilə, müsavatçıları çaş-baş qoyub. Məsələn, "ümidçilər" indi də düşərgədaxili böhran məsələsini ortaya ataraq, iddia edirlər ki, bu fonda bütün siyasi partiyalar (yəni müxalifət partiyaları-R.N.) birgə əməkdaşlıq etməlidirlər. Yeni ittifaqlarda birləşməli, hakimiyyətə qarşı fəal siyasi mövqe nümayiş etdirməlidirlər.

### "Müxalifətin vaxtilə formalaşmış birliyini Müsavatın yeni rəhbərliyi pozub"

"Ümidçilər" sosial şəbəkələrdə yazırlar ki, özünü ölkənin böyük müxalif partiyası hesab edən Müsavat partiyasının siyasi fəaliyyəti, demək olar ki, görünmür. Onlar A.Hacılını nəzərdə tutaraq, onu və partiyadaşlarını "iqtidara işləməkdə" ittihamı ilə günahlandırırlar. Digər bir fikirdə isə yazılıb: "Görəsən, Müsavat hakimiyyətdən nə qədər vəsait alır ki, belə susqun mövqe nümayiş etdirir?! Müxalifətin zamanla formalaşmış birliyini pozmuş Müsavatın yeni rəhbərliyini partiyadaxili intriqaları sakitləşdirmək maraqlandırır.

Görünür ki, bu partiya özünün müxalifətçilik missiyasını başa vurub, öz qərargahına çəkilib, yalnız öz cari məsələləri ilə məşğul olur. Belə olmasaydı, Müsavatı geniş siyasi arenada hakimiyyətə qarşı müxalifətdə görərdik. Partiya başqanı A.Hacılı yalnız facebook-da özünü göstərərək, siyasətdə olduğu zənnini yaratmaqla məşğuldur".

### Müsavatçılar "Ümid"lə yollarının çoxdan ayrıldıqlarını bildirirlər

Bu arada daha bir məsələ ortaya çıxır. İddia edilir ki, İ.Ağazadə indi də özünü Müsavatın qatı düşməni olan və Ə.Kərimlinin sədri olduğu AXCP-yə yarınmağa cəhd edir. Xüsusilə, sonuncu parlament seçkisində uduzandan sonra o öz xilasını nədənsə AXCP ilə əməkdaşlıq etməkdə görür. Hətta deyilənə görə, Ə.Kərimli İ.Ağazadəyə "Milli Şura"ya üzv olmaq təklifini verib və ikinci tərəf birinciyə bir müddət bu barədə düşünəcəyini bildirib. Yeri gəlmişkən, müsavatçılar artıq İ.Ağazadəyə inanmadıqlarını deyərək, onunla yollarını ayırdıqlarını deyirlər. Lakin fakt budur ki, artıq bu partiyalar arasında ciddi intriqa yaşanmağa başlayıb və bunun nəticəsinin və proqnozunun indidən hansı sonluğa doğru gedəcəyini hiss etmək də kifayət qədər mümkündür. Çünki yalnız "Ümid"lə Müsavatın deyil, digər ənənəvi müxalifət partiyalarının da bir-biri ilə münasibətləri fonunda biz bənzər qarşıdurmaların şahidləri olmuşuq.

**Rövşən NURƏDDİNOĞLU**

# Elşən Manafov: "Azərbaycanın Dağlıq Qarabağda antiterror əməliyyatı aparmaq hüququ var"

"Azərbaycan 2017-ci ildə terrorçuluqla mübarizə sahəsində Amerika Birləşmiş Ştatlarının güclü tərəfdaşı olub. Bu fikir ABŞ Dövlət Departamentinin illik hesabatında yer alıb". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib. Onun hesabata istinadən dediyinə görə, ötən il Azərbaycan hökuməti ölkənin quru və dəniz yolları ilə insan, pul və mal daşınmasına yönəlmiş terrorçuluq fəaliyyətinin aşkar edilməsi və qarşısının alınmasında fəal iş görüb: "Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri terror hücumlarının qarşısının alınması, terrorçuların izlənməsi və həbsi ilə bağlı əməliyyatlar keçirib. Hesabat ilində Azərbaycan NATO-nun antiterror təşəbbüslərinə dəstəyini davam etdirib. Azərbaycan "Asiyanın Qəlbi - İstanbul Prosesi"nə həmsədrlik edərək, Əfqanıstanda təhlükəsizliyin və sabitliyin möhkəmlənməsi üzrə səylərini davam etdirib. Qeyd edilənlərdən aydın görür ki, terrora qarşı mübarizədə Azərbaycan Qərbə hərtərəfli yardım edir". Politoloq Elşən Manafov qeyd etdi ki, Qərbin Azərbaycanın Dağlıq Qarabağda antiterror əməliyyatlarına dəstək verməkdən yayınması onun ikili standart siyasətindən qaynaqlanır: "Təbii ki, Qərb də Rusiya kimi, ATƏT-in Minsk Qrupunda təmsil olunan həmsədr dövlətlər kimi Azərbaycanın, əslində, Dağlıq Qarabağdakı erməni separatizmi və Ermənistanın dövlət terrorizminə qarşı mübarizə aparmaq hüququnu tanımalıdır. Azərbaycanın qüvvədə olan qanunvericiliyinə görə, Dağlıq Qarabağda antiterror əməliyyatı aparmaq hüququ var. Lakin Qərb və Minsk Qrupu dəfələrlə bəyan edib ki, problemin hərbi yolla həlli variantı yoxdur. Onlar problemin sülh danışıqları, diplomatik yolla həll olunmasını tövsiyə edirlər. Qərb yaxşı bilir ki, Azərbaycan problemi hərbi yolla həll etmək gücündədir. Anlayırlar ki, qısa zamanda Bakı problemi həll edib, özünün ərazi bütövlüyünü təmin edə bilər.



Amma görünür, böl-gədə bu səpkidə mövcud vəziyyətin qalması Qərb və Rusiyadakı bəzi dairələrin maraqlarına cavab verir. Hərçənd, Qərb Azərbaycana ciddi sərmayə və kapital qoyub. Bu mənada, düşünürlər ki, hərbi əməliyyatların başlanması iqtisadi layihələrin təhlükəsizliyinə ciddi təhdid yarada bilər. Bununla belə, Qərb siyasi dairələrinin məsələ ilə bağlı verdiyi açıqlamalar ikili xarakter daşıyır. Azərbaycanın beynəlxalq terrorizmlə mübarizədə mövcud koalisiyanın yanında olaraq, burada aktiv iştirak etməsinə Qərb dəyər verirsə, təbii ki, bu, ölkəmizin müasir dünyada terrorizmə qarşı oynadığı rola verilən dəyərdir. Azərbaycan zamanında İraq, indi də Əfqanıstanda terrorizmə qarşı mübarizədə mühüm töhfələr verib. Amma təəssüf ki, Qarabağda Azərbaycanın belə bir əməliyyat aparmaq hüququ nə Qərb, nə də Rusiya tərəfindən birbaşa tanınmır. Görünür, bundan ötrü Azərbaycan diplomatiyası daha ciddi şəkildə işləməlidir. Güman edirəm ki, müvafiq şəraitin yarana biləcəyi təqdirdə, vəziyyət bu müstəvidə də ölkəmizin xeyrinə dəyişəcək. Həmin vəziyyəti deyəndə, Ermənistanda hakimiyyətlə "Qarabağ klanı" arasında getdikcə gərginləşən münasibətləri, Rusiyanın İrəvanla münasibətlərdə gərginliyin yüksək xətlə artmasını nəzərdə tuturam. Hətta Qərbin müvafiq dairələr ilə indiki Ermənistan hakimiyyəti arasındakı gərginlik də perspektivdə Azərbaycanın xeyrinə işləyir. Ona görə də, burada təmkin və səbirlə diplomatik yolla işimizi davam etdirməliyik".

**GÜLYANƏ**

# Erməni psixoloq Ermənistanın gələcəyindən nikbin deyil




Erməni psixoloq Miqrdat Madatyana görə, Ermənistanda bütün sahələr pis vəziyyətdədir. SİA xəbər verir ki, o bununla bağlı fikirlərini "İrvanuk" qəzetinə deyib. "Məktəblərdən isə ümumiyyətlə, danışmaq istəmirəm, belə ki, təhsil və mədəniyyət naziri Araik Arutunyan marixuananın leqallaşdırılmasının tərəfdarı olaraq çıxış edir", deyə qeyd edən erməni psixoloqu sözlərini bu cür izah edib: "Ona görə də mən uşağımı məktəbə göndərmək istəmirəm, çünki sonradan ona marixuanadan istifadə etməyin nəyə görə pis vərdiş olduğunu başa sala bilməyəcəyəm".

Miqrdat Madatyan səhiyyə naziri Arsen Todosyan barədə də fikirlərini bölüşərək deyib ki, onun rəhbərlik etdiyi sahədə də bənzər mənzərə mövcuddur: "Səhiyyə naziri Arsen Todosyan həmin adamdır ki vaxtilə uşaq tabutları istehsalı barədə danışırdı, indi isə bizim "sağlamlığımızı mühafizə edən" nazirliyə rəhbərlik edir.

# ABŞ-dan İrana sərt mesaj - Qiyamət qopacaq!



"Bu gün açıq şəkildə mesaj verirəm. Sizi izləyirik. Tehran rəhbərliyindən ABŞ-a, vətəndaşlarına və müttəfiqlərinə hər hansı bir ziyan gəldiyi təqdirdə qiyamət qopacaq". SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, bunu ABŞ prezidenti Donald Trampın Milli Təhlükəsizlik Məsləhətçisi John Bolton deyib. Belə ki, eyni gündə ABŞ prezidenti Donald Tramp və İran prezidenti Həsən Ruhani Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının yığıncağında çıxışlar zamanı dövlət başçılarının hər biri qarşı tərəfi təhdid edib. Tramp İranı sanksiya ilə təhdid edərkən, H.Ruhani isə ABŞ prezidentini zəif intellekti ilə günahlandırıb. Tramp BMT Baş Assambleyasında çıxışı zamanı İranın nüfuzdan düşən diktatorluğunu tənqid edib. O, İranı dünyada terrorizmin öndə gələn sponsoru olaraq xarakterizə edib və bu ölkənin liderlərini xaos, eyni zamanda dağıdıcı ölüm toxumları əkməkdə günahlandırıb. ABŞ lideri həmçinin İranın sərhəd qonşularına və xalqların suverenlik hüquqlarına hörmət etmədiklərini də deyib. İranın dünyanı ən təhlükəli silahlarla təhdid etdiyini, "Amerika üçün ölüm" deyərək, İsraili məhv etməyə çalışdığının iddiası ilə çıxış edən Tramp, bu rejimə izin verməyəcəyini deyib.

# Azərbaycan-Ermənistan dövlət sərhədində keçirilən monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 26-da Azərbaycan və Ermənistan dövlət sərhədinin Gədəbəy rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparırlar.

# Azərbaycan alimləri Qroznı şəhərində Beynəlxalq Konqresdə iştirak ediblər

***11-12 sentyabr 2018-ci il tarixində Çeçenistan Respublikasının Qroznı şəhərində "Qafqaz xalqlarının etnik tarixi və etnogenezi" mövzusunda Nax xalqlarının Birinci Beynəlxalq elmi Konqresi keçirilmişdir. Konqresdə Almaniya, Türkiyə, Azərbaycan, Gürcüstan, Ermənistan, İordaniya, İsrail, Suriya, Özbəkistan, Qazaxıstan respublikasından gələn nümayəndələr iştirak etmişdir. Bundan başqa Konqresin işində Şimali Qafqazda yaşayan xalqların nümayəndələri geniş tərkibdə təmsil olunmuşdular. Eyni zamanda, Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq, Kazan, Həştərxan, Krasnodar və Pyatiqorsk şəhərindən gələn elm adamları və pedaqoqlar iştirak etmişdilər.***





Konqres əvvəlcə plenar iclasla başlamış, sonra isə ayrı-ayrı seksiyalarda davam etdirilmişdir. Bütövlükdə, plenar iclasda 8 məruzə, seksiyalarda isə 125 məruzə dinlənilmişdir. Konqresdə elmi cəhətdən aktual hesab edilən bir çox problemlər müzakirə edilmiş, xüsusən, Qafqaz xalqlarının etnik tarixi və etnogenezi məsələlərinə xüsusi diqqət yetirilmişdir. Konqresdə çıxış edən Çeçenistan Respublikasının prezidenti Ramzan Kadırov tədbir iştirakçılarını salamlayaraq, Qafqazda yaşayan xalqlar arasında sülh və əmin-amanlığın bərqərar olmasını vurğulamış, Qafqaz xalqlarının, o cümlədən, çeçen xalqının etnik tarixinin dərindən öyrənilməsinin aktual olduğunu bildirmiş və Konqresin işinə uğurlar arzulamışdır. Konqresdə AMEA Fəlsəfə İnstitutunun Davamlı inkişafın fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, professor Sakit Yəhya oğlu Hüseynov da iştirak etmişdir. Konqresin plenar iclasında iştirakçıları salamlamaq üçün çıxış edən Sakit Hüseynov çeçen etnosunun formalaşması prosesində mədəniyyətin rolundan danışmış və Qafqaz xalqları arasında multikultural dəyərlərin, Azərbaycan və Çeçenistan arasında elmi əməkdaşlığın inkişafının zəruriliyini vurğulamışdır.

Sakit Hüseynov çeçen xalqlarının etnik tarixinin formalaşmasında dini-fəlsəfi dünyagörüşün və milli-mənəvi mədəniyyətin mühüm rol oynadığını vurğulayaraq, çeçen xalqının mənəvi irsinin formalaşması prosesini şərh etmişdir. Çıxışdan sonra Sakit Hüseynov Azərbaycandan apardığı bir neçə kitabı Çeçenistan prezidenti Ramzan Kadırova və Çeçenistan Elmlər Akademiyasının prezidenti, akademik Ş.Qapurova hədiyyə kimi təqdim etmişdir. Bunun müqabilində prezident R.Kadırov Azərbaycan alimlərinə öz təşəkkürünü bildirmişdir.

Konqresdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun böyük elmi işçisi, m.ü.f.d. Həsənağa Ramazanlı "Azərbaycanda və Şimali Qafqazda topoloji abidələrə sistemli yanaşmanın bəzi xüsusiyyətləri" mövzusunda məruzə etmişdir. Müasir mərhələdə Azərbaycan arxeologiyasında, praktiki olaraq, yeni yanaşma metodlarından istifadə olduğunu Konqres iştirakçılarına bildirən məruzəsi Qafqaz xalqlarının etnogenezinin öyrənilməsində də bu yeni metodların tətbiq edilməsini məqsədəuyğun hesab etmişdir.

Tarix üzrə fəlsəfə doktoru Dilavər Əzimlinin (A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi) "XII əsrin sonu XIV əsrin əvvəllərində Azərbaycanda dini vəziyyət" adlanan məruzəsi Qafqazda dini münasibətlərə həsr olunmuşdur. Müəllif məruzədə göstərir ki, XIII əsrin sonunda Qafqazda hakimiyyətdə olan Qazan xan islam dinini imperiyanın rəsmi dini elan edir (1295) və bu hadisə dövlət işlərinin islam şəraiti qaydaları ilə idarə edilməsinə rəvac verir.

O vaxt Qafqaz ərazisi də Hülakilər İmperiyasının tərkibində olduğundan, islam dininin Şimali Qafqazda yayılması sürətlənmişdir. İndiki Çeçenistan da daxil olmaqla Şimali Qafqazda dövlət idarəçiliyində islam dininin rolu da genişlənməyə başlamışdır. Bu baxımdan çeçen xalqının milli-mənəvi cəhətdən formalaşmasında islam dinin mühüm rolu həmin tarixi dövrlərlə bağlıdır.

A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi t.ü.e.d. Xeyirbəy Qasımovun "Orta əsr Qafqaz xalqlarının tarixi coğrafiyasının və etno-mədəni tarixinin A.A.Bakıxanovun "Gülistani-İrəm" əsərində əksi" adlı məruzəsində orta əsr Qafqaz xalqlarının həm tarixi coğrafiyası, həm də etno-mədəni tarixi ilə bağlı maraqlı fikirlər irəli sürülmüşdür. Bundan başqa, A.A.Bakıxanovun əsərinə əsaslanaraq, məruzəsi X.Qasımov məruzədə "erməni", "Erməniyyə", "Ermənistan" ifadələrinin müasir haylarla bağlı olmadığı, hayların çoxəsrlik saxtakarlıq fəaliyyəti də xüsusi qeyd edilmişdir.

Tarix İnstitutunun aparıcı elmi işçisi, m.ü.f.d. Alı Balayevin Konqresdəki məruzəsi də müəyyən maraq kəsb etmişdir. Belə ki, "XIX-XX əsrlərin miqrasiya prosesləri Azərbaycan xalqının etnik konsolidasiyanı ləngidən amil kimi" adlanan məruzə son 170 il ərzində Şimali Azərbaycanda baş vermiş zorakı miqrasiyanın tədqiqinə həsr edilmişdir. Məruzəçi, xüsusən, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağ münaqişəsindən sonra baş vermiş miqyasda prosesləri, münaqişə və müharibə nəticəsində, meydana çıxış yeni miqrasiyaların respublikamızın sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərdiyini Konqres iştirakçılarının nəzərinə çatdırmışdır.

AMEA Folklar İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru Qalib Sayılovun "Qafqaz" mədəni məkanında ümumi davranış formulları" adlı məruzəsində Azərbaycan və çeçen xalqlarının adət və ənənələri müqayisə olunmuş, bir sıra adətlərin ritual-mifoloji mənşəyi izah olunmuş, o cümlədən, Qafqaz Ümumdavranış formullarının daha geniş etnik coğrafiyasında öyrənilməsi ilə bağlı bəzi təkliflər verilmişdir.

AMEA Folklor İnstitutunun şöbə müdiri, f.ü.f.d. prof. Seyfəddin Rzasoyun "Mifogenez etnogenezin semmotik proyeksiyası kimi (Oğuz və Nax mifoloji mətnləri əsasında)" adlı məruzəsində Oğuz və Nax miflərinin müqayisəli konteksdə öyrənilmiş, Nax miflərinin əsas personajlarından olan div obrazlarının strukturunda türk mif layı aşkarlanaraq, struktur-semiotik kontekstdə təhlil olunmuşdur.

Azərbaycan Texniki Universiteti İctimai fənlər kafedrasının professoru, f.ü.e.d. Əyyub Kərimov isə "Mentalitet anlayışına müasir yanaşma və çeçen xalqının milli mentalitetinin özünəməxsus xüsusiyyətləri" adlı məruzəsində mentalitet anlayışı ilə bağlı müxtəlif müəlliflərin fikirləri fəlsəfi cəhətdən təhlil edilmiş və müasir elmi ədəbiyyata əsaslanaraq, təsnif edilmişdir. Eyni zamanda, digər xalqlarla müqayisədə Çeçen xalqının tarixən formalaşmış milli mentalitetinin özünəməxsus xüsusiyyətləri təhlil edilmişdir.

Konqresdə Azərbaycan nümayəndələrinin diqqətini cəlb edən məsələlərdən biri Abxaziya Respublikası Elmlər Akademiyası Humanitar Tədqiqatlar İnstitutunun elmi işlər üzrə müavini, tarix elmlər namizədi Quram Qumba Dxsotoviçin plenar iclasdakı məruzəsi oldu. "Nax xalqlarının etno-mədəni tarixi və etnogenez məsələləri" adlı məruzəsində Quram Qumba çeçenlərin etnomədəni tarixini "erməni mənbələrinə" əsaslanaraq, Şumerlərlə bağlamağa cəhd göstərdi.

Bundan başqa, İrəvan Qafqaz İnstitutunun direktoru, tarix elmlər doktoru, professor Aleksandr Maksoviç İskandaryan da, öz məruzəsində, çeçenlərin tarixi köklərini ermənilərlə bağlanmasını vurğuladı. Azərbaycan nümayəndələri və bir neçə çeçen alimi (tarix elmləri doktoru Salman Mirzoyev) ilə birlikdə bu fikrə qarşı etiraz etmişlər. Bu etirazdan sonra Konqresin qətnaməsində çeçen etnogenezinin erməni tarixçilərinin mənbələrinə bağlanması fikri qətnamədən çıxarıldı.

Çıxışdan belə başa düşüldü ki, Quram ermənilərə yararlanmağa çalışır. Tarixi faktlara söykənməyən bu fikrə qarşı Konqresin Qətnaməsində biz Salman Mirzoyevi dəstəklədik. Erməni mənbəşünaslığını hallandıran Quram Rusiya, ərəb, Avropa və s. tarixçilərinin heç birinə istinad edə bilmədi.

Ümumiyyətlə, Qafqaz xalqlarının genezisi ilə bağlı Azərbaycan alimləri Konqresdə fəal iştirak etdilər. Bu baxımdan, Qroznıda keçirilən Beynəlxalq Konqresdə Azərbaycan alimlərinin iştirakı faydalı oldu.

**ZÜMRÜD**

# Müxaliflər arasında maraqlar toqquşur

## *Tahir Kərimli: "Pənah Hüseyn bəzən müxalifət cəbhəsində texnoloq kimi tanınıb və müəyyən anormal təkliflərlə çıxış edib"*



Müsahibimiz Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimlidir

***- Tahir bəy, sentyabrın 29-da Pənah Hüseyn, Rəhim Qazıyev, İsgəndər Həmidov və digərləri Dağlıq Qarabağla bağlı mitinq keçirməyi planlaşdırırlar. Sizcə, münaqişənin həlli ilə bağlı prinsipial danışıqların aparıldığı bir məqamda, belə bir aksiyanın keçirilməyinə ehtiyac varmı?***

- Azərbaycanda kütləvi tədbirlər keçirmək hər kəsin haqqıdır. Müvafiq orqanlar buna razılıq verib-verməməsi haqqında heç nə deyə bilmərəm. Amma burada məsələ ondan ibarətdir ki, Qarabağla bağlı mitinq keçirmək iddiasına düşmək indiki məqamda yersiz və əhəmiyyətsizdir. Çünki münaqişənin həlli ancaq diplomatik yollarla mümkündür. Əgər diplomatik yol mümkün olmasa, hərbi variantdan istifadə oluna bilər. İndi Azərbaycan dövlətinin çox güclü ordusu var və ərazi bütövlüyü dünya tərəfindən tanınır. Hər kəs də çox gözəl bilir ki, ordumuz Qarabağı işğaldan azad etməyə hazırdır. Sentyabrın 29-da Pənah Hüseynin, Rəhim Qazıyevin, İsgəndər Həmidovun və digər müxalif ünsürlərin Dağlıq Qarabağla bağlı mitinq keçirmələri inandırıcı görünmür. Sadəcə olaraq, bəzi qüvvələr var ki, Dağlıq Qarabağ məsələsindən siyasi dividend əldə etməyə çalışırlar. Məsələn, Qurban Məmmədov oturub xaricdə istəyir ki, Qarabağ mitinqini iqtidara qarşı düşmənçilik məsələsində istifadə etsin. Bu cür istək pislənilməlidir. Çünki Qarabağ xalqımızın ağrılı yeridir. Ondan çirkin məqsədlər üçün istifadə etmək yolverilməzdir.

***- Düşünmək olarmı ki, müxalifətin texnoluqu kimi tanınan Pənah Hüseyn müxalifət düşərgəsində yaranan boşluqdan istifadə edərək, bu cür mitinqlərlə önə çıxmağa ümid bəsləyir?***

- Müxalifətin texnoluqu kimi tanınan Pənah Hüseyn nəyəsə ümid bəsləyə bilər. Amma buna nail olması mümkün deyil. P. Hüseyn bəzən müxalifət cəbhəsində texnoloq kimi tanınıb və müəyyən anormal təkliflərlə çıxış edib. Amma fikir versəniz, görərsiz ki, bu illər ərzində heç vaxt müvəffəqiyyət əldə edə bilməyib. Bir daha bildirmək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi bizim müqəddəs davamızdır. Bu mitinqdən siyasi məqsədlər üçün istifadə etmək düzgün deyil. Çünki bu, vətən, torpaq məsələsidir.

***- Əli Kərimli, İsa Qəmbər və Arif Hacılı iddia edirlər ki, onlar bu mitinqdə iştirak etməyəcəklər. Sizcə, bu şəxslərin Qarabağ məsələsində Pənah Hüseyn, Rəhim Qazıyev, İsgəndər Həmidov və digərləri ilə maraqları bölüşməmələri nədən irəli gəlir?***

- Müxalifət düşərgəsini təmsil edən Əli Kərimli, İsa Qəmbər və Arif Hacılı çox gözəl bilirlər ki, P.Hüseyn, R.Qazıyev, İ.Həmidov və digər müxalif ünsürlər Dağlıq Qarabağla bağlı mitinq keçirə bilməyəcəklər. Ona görə də, adları çəkilən şəxslər onlarla bu məsələdə bir olmaq istəmirlər. Çünki onların iştirakı ilə bu mitinqi keçirmək heç nəyə gətirib çıxarmayacaqdır. Yaxşı olardı ki, müxalifəti təmsil edən bu şəxslər Dağlıq Qarabağ məsələsindən öz şəxsi maraqları üçün istifadə etməsinlər. Çünki Qarabağ müqəddəs vətəndir. Bundan şəxsi, partiya və hətta hər hansı başqa məqsədlər üçün istifadə etmək qəti şəkildə düzgün deyil.

***GÜLYANƏ***

# Separatçıların vəkili Qurban Məmmədov

## *Yaxud bu antimilli ünsür Fəxrəddin Abbaszadəni müdafiə etməklə ermənilərin əlaltısı olduğunu təsdiqlədi*

Son dövrlərdə özünü azərbaycanlı adlandıran bir qrup xəyanətkar, Avropanın bəzi ölkələrində mühacir adı ilə məskunlaşaraq, Azərbaycan əleyhinə təbliğat aparırlar. Milli mənlik şüurundan, vətəndaşlıq borcuna sadiqlikdən məhrum olan Orduxan Teymurxan, Tural Sadıqlı, Həbib Müntəzir, Vidadi İsgəndərli, Azər Kazımzadə, Qurban Məmmədov, Qənimət Zahid, Məhəmməd Mirzəli və Emin Milli kimi xəyanətkarlar şəxsi ambisiyaları naminə anti-Azərbaycan dairələrin, eləcə də, bəzi xarici xidmət orqanlarının tələsinə düşərək, onların əlaltılarına çevriliblər. Bu gün Avropanın müxtəlif ölkələrində məskunlaşaraq, ermənipərəst qüvvələrin göstərişi ilə fəaliyyət göstərən bəzi beynəlxalq qurumların maliyyəsi ilə ələ alınan, adlarını azərbaycanlı qoyan bəzi üzdəniraqlar öz xəyanətkar əməllərini dağıdıcı müxalifətin antimilli əməlləri ilə uzlaşdırırlar.

Satqınlar şəbəkəsi ölkəmizin əleyhinə apardıqları "qara piar" kampaniyasının rəngini gündən-günə nə qədər tündləşdirsələr də, heç nəyə nail ola bilməyəcəklər. Çünki Azərbaycan ictimaiyyəti adları çəkilən ünsürlərin məqsədini yaxşı anlayır. Şübhəsiz, onları cəmiyyətimiz yaxşı tanıyır və xəyanətkarlar və satqınlar kimi birmənalı rədd edir.

Bu gün həmin satqınlar fəsiləsindən olan biri haqqında - adını vəkil qoyub vəkillikdən başqa hər şeylə məşğul olan ADP sədri Sərdar Cəlaloğlunun qardaşı Qurban Məmmədovun sosial



şəbəkələrdəki azğınlığı, Azərbaycan əleyhinə separat çağırışları, separatçılara verdiyi dəstək barədə danışmamaq qeyri-mümkündür. Bir neçə gün bundan əvvəl xəyanətkar "hüquqşünas", əslində separatçıların vəkili rolunu oynayan Q.Məmmədov Azərbaycana qarşı radikal çıxışlar edən, separatçı təşkilat rəhbəri, "Talış Milli Hərəkatı" adlanan qondarma qurumun sədri Fəxrəddin Abbaszadənin (özünü Faxroddin Abboszoda adlandırır) sentyabrın 6-da Moskva vilayətinin Lyuberets rayonunda həbs olunaraq, Azərbaycana ekstradisiya olunmasına qarşı çıxaraq, ölkəmizin əleyhinə ittihamlar səsləndirib və bu gün də öz çirkin əməllindən əl çəkmir.

Q.Məmmədov kimi satqının müdafiə etdiyi F.Abbaszadə kimdir?! Bu xəyanətkar bir zamanlar Azərbaycana düşmən kəsilən separatçı, ölkəmizi bölməyə və "Talış-Muğan Respublikası" yaratmağa çalışmış Ələkrəm Hümbətov tərəfindən 1993-cü ildə qondarma qurumun "parlamentinin spikeri" təyin olunmuşdu. Xəyanətin qarşısı alındıqdan sonra qaçıb Rusiyaya sığınan F.Abbaszadə uzun müddətdir xaricdən Azərbaycan dövlətçiliyi əleyhinə mütəmadi təxribat xarakterli kəskin çıxışlar edirdi. O, ermənilərə məxsus mətbuat orqanlarında da Azərbaycana qarşı separatçı çıxışlar sərgiləyib. F.Abbaszadənin Ermənistan xüsusi xidmət orqanları ilə sıx əlaqədə olduğu bildirilir. Dəfələrlə Yerevanda separatçı tədbirlərə qatılan F.Abbaszadə Azərbaycan əleyhinə ağlasığmaz ittihamlar səsləndirib. Məsələnin ən dəhşətli tərəfi odur ki, F.Abbaszadəni Q.Məmmədovdan başqa, ancaq ermənilər və Azərbaycan əleyhdarları olanlar müdafiə edirlər. Belə ki, F.Abbaszadə həbs olunan kimi, Ermənistanda bir qrup alim Moskva vilayətində Azərbaycana qarşı separatçılıq edən bu üzdəniraq ünsürə Ermənistan vətəndaşlığının verilməsi üçün baş nazir Nikol Paşinyana müraciət etdi. Onlar vətəndaşlığı F.Abbaszadənin Ermənistan Respublikası və erməni xalqı qarşısında xidmətləri, həmçinin, Azərbaycan əleyhinə dövri mətbuatda yazdığı məqalə və açıqlamalarına görə verilməsini təklif ediblər.

Bütün bunlar, onu göstərir ki, Q.Məmmədov və onun kimi mühacir adı ilə ayrı-ayrı Qərb ölkələrində sığınacaq tapan bəzi antimilli ünsürlər erməni lobbisi və onların təsiri altında olan təşkilatlarla sıx iş birliyindədirlər.

***"Səs" Analitik Qrupu***



**Təhməsib Novruzov**

# Ayaq tutan və yeridilən yalanlar

***"Yalan ayaq tutar, amma yeriməz" deyib babalarımız. Di gəl ki, zaman necə dəyişibsə, müxalifət düşərgəsində yalan, nəinki ayaq tutur, hələ sürətli addımlarla yeriyir də. Bəlkə də bu mövzuya toxunmazdım. Amma söhbət Qarabağdan, burada vaxtilə baş verənləri hər kəs öz istədiyi kimi təhrif edib cəmiyyətə ötürürsə, o zaman susmaq haqqından imtina etməyə məcbur olursan.***

Bu yazımda haqqında olmazın yalanlar uydurulan bir cəsur Vətən oğlu haqqında danışacam. O da I Qarabağ savaşında Qatır Məmməd təxəllüsü ilə tanınan Yaqub Rzayevdir. Bu adam yenicə ailə həyatı qurmuş, gənc və igid oğlunu Vətən naminə qurban verdi, gözündən bir damla yaş axıtmadı. Özünü isə respublikanın o zamankı oyuncaq hərbi rəhbərliyi şərləyib həbsə saldırdı. Sonradan isə hansısa sirlərinin örtülüb-basdırılması üçün həbsxanada qətlə yetirdildi. 1988-93-cü illərdə Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edən hər kəs, o cümlədən, Ağdam əhalisi yaxşı bilir ki, Yaqub Rzayev gerçək vətənpərvər, qorxmaz, düşmənə nifrəti tükənməyən bir kişi idi. Oğlu, Azərbaycanın Milli Qəhrəmanı Canpolad Rzayevlə birlikdə saysız-hesabsız qəhramanlıq nümunələri göstərib. Ağdam işğal olunanda, həbsdə olan bu şəxs haqqında bir böhtan ayaq açdı. Guya ermənilər Ağdama hücum edəndə, Yaqub Rzayev rayondakı Əsəb Dispanserinə girmiş, hirsini burdakı ruhi xəstələrdən çıxmış və 40-a yaxın xəstəni güllələmişdir (?). İş o həddə gəlib çıxdı ki, keçmiş millət vəkili Rizvan Cəbiyev Milli Məclisdə bunu səsləndirdi. Sonradan həqiqəti söylədikdən sonra bu yanlışını düzəltmək istəsə də, artıq ox yaydan çıxmışdı. İkinci dəfə keçmiş millət vəkili, "Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül bir şayiə buraxdı ki, 1992-ci ilin 20 noyabrında Qarakənd üzərində qəzaya uğrayan vertolyotu kiminsə göstərişi ilə Yaqub Rzayev vurub. Tövbə de, Hacı, tövbə de! O vertolyotun necə vurulduğunu bilən kifayət qədər adam bu gün də sağdır. Bu boyda yalanı sənin ağlına kim yeridibsə, səni cəhənnəmə göndərmək istəyir. Kimə lazımsa həmin qəzanın baş vermə şəraiti və şübhə doğuran məqamlar, mən ona çox şeyləri deyə bilərəm. Əmin ola bilərsən ki, o həqiqətləri biləndə, dediklərindən utanacaqsan. Nəhayət, Yaqub Rzayevlə bağlı daha bir şayə. 1992-ci ilin noyabrında, guya Yaqub Rzayev 10-15 nəfərlə gəlirmiş Bakıda çevriliş eləməyə (?), bundan xəbər tutan Rövşən Əliyev (Respublikanın keçmiş Hərbi Prokuroru) sanksiya verib və Qaradağda qarşılarını kəsib həbs ediblər. Bu şayiəni də ortaya buraxan kim ola, kim ola, Rəhim Qazıyev (Adını məcburən çəkdiyimə görə oxuculardan üzr istəyirəm). O Rəhim ki, Moskvada verdiyi vədlərə emissar dostları ilə birlikdə can-başla əməl elədi və Qarabağın ermənilərə ərməğan edilməsini təmin etdi. O Rəhim ki, Qarabağa hər səfərində, nazir olana qədər Yaqubun evində qonaq olardı. O Rəhim ki, Əsgəran rayonunun Xoramord kəndini özünün komandiri olduğu kiçik könüllü batolyonu ilə ermənilərdən azad edib orda möhkəmlənən Yaqub Rzayevə əmr verirdi ki, dərhal həmin kəndi təhvil verib, aşağı düşsün. Bu əmri pozan Yaqubu aldadaraq, texnika, silah-sursat vermək adı ilə Bakıya çağırıb, Qaradağda həbs etdirdi və dərhal da Yaqubun batalyonuna komandir təyin etdiyi Mamed adlı şəxsə əmr verib, qüvvəni Xoramorddan Ağdama endirdi, İdman Kompleksində qərargah yaradılır və bundan sonra bu cəsur oğulların birləşdiyi batalyon heç bir döyüşə göndərilmir!..

Məni bu mövzuda yazmağa vadar edən də, məhz Rəhim Qazıyev kimi namərdin illər sonra etdiyi qələtini pərdələyib, kimisə düşmən çıxarmaq cəhdidir. Ayıbdır, vallah! Əminəm ki, Yaqub Rzayevin sənin qarşına qoyduğu, özün yox, nəslin-nəcabətin ağırlıqda çörək səni tutacaq. Bu yalan dünyada deyilsə də, haqqın dərgahında Yaqub kişi sənin yaxandan yapışıb, bu gün ailəsinə axıtdırdığın göz yaşlarının hesabını səndən və sənin kimilərdən soruşacaq. Bax, sənin bu dünyada milyonlarla insana bəxş elədiyin məhşərin qat-qat ağırı orda olacaq, həm də sənin başında!..

# XIX əsrdə insan hüquqlarına dair təlimlər

***Tarixin bütün mərhələlərində azadlıq və bərabərlik prinsipləri uğrunda fərd-dövlət və vətəndaş-dövlət müstəvilərində mübarizənin şahidi ola bilərik. Bu iki prinsip insan hüquqlarının inkişafında fundamental rola malik olmuşdur. İnsan özünü dərk etdiyi gündən bəri daim azad olmağa can atmışdır. Bu, insanın ali varlıq kimi mahiyyətindən irəli gəlir. Azad olmayan insan heç bir hüququnu reallaşdıra bilməz. Azad olmaq və ya azadlığa nail olmaq insan üçün başlıca məqsəddir. Lakin insan azadlığının sonsuz olmadığını, bu azadlığın digər insanların azadlığı ilə ahəngdə reallaşmasını dərk etməlidir.***

Şübhəsiz, əgər insan öz azadlıq həddini aşarsa, o, cəzalandırılaraq azadlıqdan məhrum edilə bilər. Bəs, azadlıq nədir? Onun sosial-fəlsəfi mahiyyəti nədən ibarətdir? Bu istiqamətdə aparılan araşdırmalar və təhlillər yekdil bir fikir formalaşdırmamış, əksinə, fikir müxtəlifliklərini dərinləşdirmişdir. Bu məsələ ilə əlaqədar Ş.Monteskye vaxtilə demişdir: "Başqa heç bir söz azadlıq qədər fərqli mənalar verməmiş və fikirlərdə müxtəlif şəkillərdə iz buraxmamışdır." Russo "İctimai müqavilə" əsərini, demək olar ki, "insan azad doğulur, amma hər yerdə əlləri bağlanmışdır" fikrinin aydınlaşdırılmasına həsr etmişdir. Bu sahədə yayılmış əsərlər sırasında görkəmli mütəfəkkir C.S.Millin "Azadlıq haqqında" məşhur əsərini qeyd etmək olar, Azərbaycanın tanınmış yazıçısı və filosofu M.F.Axundov "Con Stüart Mill "Azadlıq haqqında" və "Kəmalüddövlə məktubları" adlı əsərlərində azadlıqla əlaqəli fikirlərini ifadə etmişdir.

Con Stüart Mill yazırdı: "Xalqın guya özünün öz üzərindəki hakimiyyətini məhdudlaşdırmağa heç bir ehtiyacının olmaması haqqında fikir xalq idarəçiliyinin hələ də arzu, yaxud çoxdan keçmiş günlərin xatirələri olduğu vaxtlar üçün aksiom kimi görünə bilərdi. Bu fikri Fransa inqilabı üçün xarakterik lər və buna görə də istənilən hakimiyyətin sui-istifadə cəhdlərinə qarşı olduğu kimi, bu hakimiyyətin də sui-istifadə meyllərinə qarşı tədbirlər görülməlidir. Deməli, fərdlər üzərində dövlət hakimiyyətinin məhdudlaşdırılması hakimiyyət verilmiş adamların xalq, yəni xalqın əksəriyyəti qarşısında məsul olduğu halda da, öz əhəmiyyətini itirmir. Bu baxış mütəfəkkirlər tərəfindən etiraz doğurmadı və Avropa cəmiyyətinin həqiqi, yaxud ötəri mənafeləri demokratiyanın maraqlarına uyğun gəlməyən sinifləri tərəfindən rəğbətlə qarşılandı, buna görə də, o, heç bir çətinliklə rastlaşmadan yayıldı və hazırda siyasi mükalimələrdə əksəriyyətin istibdadı, adətən, elə bəlaların sırasına daxil edilir ki, cəmiyyət onlara qarşı sayıq olmalıdır."

Ə.Abbasov "İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə" kitabında dahi alman filosofu G.V.Hegelin azadlıq probleminin öyrənilməsinin və dərin fəlsəfi təhlilinin möhtəşəm müəlliflərindən biri olduğunu əsaslandırmışdır. Tarix boyu mövcud olmuş və əksəriyyət tərəfindən qəbul edilən ağa-qul münasibətlərinin hüquq, ali dövlət və vətəndaş cəmiyyəti ilə bir araya sığmayan hal hesab edən Hegel yazırdı: "Ümumiyyətlə, insan yalnız azad varlıq kimi rə yığır. Ona görə insanlar çalışırlar ki, bir-birində özlərini tapsınlar. Lakin bu, o vaxta qədər baş verə bilməz ki, onlar öz təbiiliklərində, bilavasitəliklərində qalırlar, çünki bu sonuncular, məhz o şeylərdir ki, insanları aralayır və birinin başqasına münasibətində azad olmasına maneə yaradır. Azadlıq, ona görə tələb edir ki, özünü dərk edən subyekt həm öz təbiiliyinin üzə çıxmasına yol verməsin, həm də digərlərinin təbiiliyinə dözümlülük göstərməsin. Beləliklə, azadlıq yalnız mübarizə vasitəsilə qazanıla bilər."

"Ruhun fəlsəfəsi" əsərindən daha bir əhəmiyyətli fikrə də diqqət yetirək: "Antik xalqlar - yunanlar və romalılar mütləq azadlıq anlayışına yiyələnməmişlər, çünki onlar, hələ dərk etməmişlər ki, insan özlüyündə, ən ümumi "Mən" kimi, şüurlu özünüdərk kimi, azadlığa hüquqludur. Onlarda insan o zaman etiraf olunurdu ki, o, anadan azad doğulub. Onlarda, deməli, azadlıq nəsə təbii olan şey kimi müəyyənləşirdi. Bu səbəbdən də, onların azad dövlətlərində quldarlıq mövcud idi və romalılarda qanlı müharibələr baş verirdi ki, qullar özləri üçün azadlıq, insani hüquqların onlara da şamil olunması uğrunda çalışırdılar. Hegelə görə: "Heç bir mütləq ədalətsizlik həyata keçirilmir; kim ki, öz azadlığını qazanmaq üçün həyatını riskə verən cəsarətini özündə tapa bilmir, o, qul olmağa qadirdir. Əgər hansısa xalq yalnız azad olmaq niyyəti ilə öyünüb-lovğalanmırsa və azadlığa həqiqi, enerjili iradəsi vardırsa, onda heç bir zorakılıq onu xalis passiv idarəolunma vəziyyətində - köləlikdə saxlaya bilməz." Böyük mütəfəkkirin fikrincə, hər bir qanun-azadlıqdır, çünki belə qanun obyektiv ruhun ağıllı və ədalətli elementlərindən qaynaqlanır.

olan və ümumi axardan kənara çıxan qeyri-adi hadisələr də sarsıda bilməmişdir. Belə ki, bu hadisələr hakimiyyəti ələ almış azlığın işi idi və bu hadisələrdə günahkar xalq təsisatları deyil, bu cür konvulsiv partlayışa səbəb olmuş aristokratiya və monarxiya istibdadı idi. Lakin həqiqi demokratik respublika yaradıldıqdan və beynəlxalq birlikdə onun ən qüdrətli üzvlərindən biri kimi öz yerini tutduqdan sonra, seçilən və məsul hökumət hər hansı əhəmiyyətli fakt kimi müşahidə və tənqid hədəfinə çevrildi. Bu vaxt gördülər ki, özünüidarə və xalqın özünün öz üzərindəki hakimiyyəti kimi ifadələr o qədər də dəqiq deyildir. Hakimiyyət verilmiş xalq heç də həmişə bu hakimiyyətə tabe edilmiş xalqla eyniyyət təşkil etmir və özünüidarə deyilən şey hər kəsin özünü idarə etməsi demək olmayıb və hər kəsin yerdə qalanların hamısını idarə etdiyi idarə üsuludur. Bundan başqa, xalqın iradəsi nə isə başqa bir şeydir, xalqın daha çoxsaylı, yaxud daha fəal hissəsinin iradəsi, yəni əksəriyyətin, yaxud özünü əksəriyyət kimi qəbul etdirməyə nail olanların iradəsi kimidir - burada da xalq hakimiyyəti xalqın bir hissəsini əzmək istəyində, ola bi-

hüququn predmeti olur. Hüququn əsasında ayrıca götürülmüş adamın azadlığı dayanır və hüquq ondan ibarətdir ki, mən başqaları ilə azad varlıqlar kimi davranıram. Zəka hüququn gözlənilməsini tələb edir. Hər bir kəs mahiyyətcə azad insandır...başqasına hörmət etmək - deməli, özünə hörmət etməkdir. Məhz bu, ona gətirib çıxarır ki, bir insanın haqqının pozulması ilə hamıya təhqir yetirilir."

Hegelə görə hüququn əhəmiyyəti ondan ibarətdir ki, hər kəs digəri ilə hesablaşmalı və onunla bir azad varlıq kimi rəftar etməlidir. Bir insanın başqa bir insanın azadlığını məhdudlaşdıran və ya bu azadlığı etiraf etməyən əməli hüquqa zidd olacaqdır. Onun verdiyi tərifə görə, "dövlət - hüquqi münasibətlərdə olan insanların cəmiyyətidir ki, burada insanlar öz təbii meyillərinə və hisslərinə uyğun hansısa fərdi-təbii münasibətlər hesabına yox, şəxsiyyətlərinin təsdiq (etiraf) edilməsinə görə, birbirləri üçün əhəmiyyətli olurlar."

Hegel özünün məşhur əsərlərindən olan "Ruhun fəlsəfəsi"ndə qeyd edir: "Bir insanın azadlığının digərində olması bu insanları daxilən birləşdirir. Əksinə, tələbat və ehtiyac onları yalnız zahirən bir ye-

zanmaq üçün həyatını riskə verməkdən qorxmur..." [continued text in column]

K.Mark və F.Engels XIX əsrdə insan hüquq və azadlıqlarına marksist sinfi mövqedən yanaşırdılar: "İndiyə qədər mövcud olan bütün cəmiyyətlərin tarixi siniflər mübarizəsi tarixi olmuşdur. Azad insanla qul, patrisi ilə plebey, mülkədarla təhkimli, usta ilə şagird, müxtəsər, zalımla məzlum arasında əbədi bir antaqonizm olmuş, onlar gah gizli, gah da açıq şəkildə daima bir-biri ilə mübarizə aparmışlar və bu mübarizə həmişə bütün cəmiyyət binasının inqilabi surətdə yenidən qurulması və ya mübarizə edən siniflərin hamısının məhv olması ilə nəticələnmişdir...

Dağıdılmış feodalizm cəmiyyətinin içərisindən meydana çıxan müasir burjua cəmiyyəti sinfi ziddiyyətləri məhv etmədi. Bu cəmiyyət ancaq köhnələrin əvəzinə yeni sinifləri, yeni zülm şəraitini və yeni mübarizə formalarını meydana gətirdi. Lakin bizim dövr, burjuaziya dövrü bununla fərqlənir ki, o, sinfi ziddiyyətləri sadələşdirmişdir: cəmiyyət getdikcə daha artıq dərəcədə bir-birinə düşmən olan iki böyük cəbhəyə, bir-birinə qarşı duran iki böyük sinfə - burjuaziya ilə proletariata parçalanır...

Müasir dövlət hakimiyyəti yalnız bütün burjuaziya sinfinin ümumi işlərini idarə edən bir komitədir. Burjuaziya tarixdə son dərəcə inqilabi rol oynamışdır. Burjuaziya hakimiyyət başına gəldiyi hər yerdə bütün feodal, patriarxal, idillik münasibətləri dağıtmışdır. O, insanı öz "təbii hökmdarlarına" bağlayan alabəzək feodal buxovlarını amansızlıqla qırmış və insanlar arasında quru bir mənfəətpərəstlik, amansız "nağd pul" əlaqəsindən başqa heç bir əlaqə saxlamamışdır. O, dini vəcd, cəngavər coşqunluğu və meşşan sentimentallığının müqəddəs həyəcanlarını fərdi mənfəətpərəstliyin buzlu sularında qərq etmişdir. O, insanın şəxsi ləyaqətini mübadilə dəyərinə çevirmiş, əta olunan və əldə edilən saysız-hesabsız azadlıqları yeganə vicdansız bir ticarət azadlığı ilə əvəz etmişdir. Bir sözlə, o, dini və siyasi xülyalar pərdəsinə bürünmüş istismarı açıq, həyasız, müstəqim və rəhmsiz bir istismarla əvəz etmişdir...

Burjuaziya ümumdünya bazarını istismar etmək yolu ilə bütün ölkələrin istehsal və istehlakını kosmopolitik şəklə salmışdır. İrticaçıların çox böyük təəssüfünə səbəb olsa da, o, sənayeni milli zəmindən məhrum etmişdir. Ən qədim milli sənaye sahələri məhv edilmiş və hər gün məhv edilməkdədir...

Köhnə yerli və milli qapalılığın və öz istehsal məhsulları hesabına yaşamağın yerini millətlərin hərtərəfli əlaqəsi və onların bir-birindən hərtərəfli asılılığı tutur. Bu, eyni dərəcədə həm maddi, həm də mənəvi istehsala aiddir.."

Leyla İsgəndərova marksizmə münasibətini belə ifadə edir: "K.Marksın cəmiyyətin ümumi inkişaf qanunauyğunluqları haqqında təlimindən başlayaraq, insan barəsində dialektik materializmin əsas prinsiplərinin meydana gəlməsi ilə elmi aləmdə, müvəqqəti də olsa, müəyyən dəyişikliklər baş verdi.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 27 sentyabr


## Payız depressiyası psixoemosional dəyişikliklərlə özünü büruzə verir

Statistikaya görə, dünyada hər beş nəfərdən biri payız depressiyasından əziyyət çəkir. Mövsümü əhval dəyişkənliyi ilə daha çox mütəmadi olaraq stressə məruz qalan, həyatdan narazı, fiziki və psixi sağlamlığı tam olmayanlar üzləşirlər. Bu barədə AZƏRTAC-a Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərova məlumat verib. Onun dediyinə görə, günəş şüalarının azalması orqanizmdə melatonin hormonunun artmasına səbəb olur və bunun nəticəsində əhvali-ruhiyyə aşağı düşür. Payız depressiyası daha çox qadınlarda müşahidə olunur.



Psixoloq depressiyaya qarşı mübarizə üsulları barədə deyib: “Payız aylarında hava şəraitindən asılı olmayaraq xoş əhvali-ruhiyyə yaradan rəngbərəng geyinməkdən imtina etməmək lazımdır. Meditasiyalara üstünlük vermək, yəni özünə müsbət enerji aşılamaq, daxilən hər şeyin sakit və rahat olduğunu özünə təlqin etmək vacibdir”.

Respublika Kliniki Uşaq Xəstəxanasının həkim-hematoloqu, tibb üzrə fəlsəfə doktoru Sevinc Əlifəttahzadə bu barədə danışarkən deyib: “Payız depressiyasından əziyyət çəkənlərin çoxu qanazlığı problemi ilə qarşılaşır. Orqanik qanazlığı depressiyanın səbəblərindən biridir. Çünki əksər hallarda qanazlığı psixoemosional dəyişikliklər, özünəqapanma, halsızlıq, yuxuya daha çox meyilliliklə özünü göstərir”. Onun dediyinə görə, depressiya zamanı qidalanmağa ciddi fikir verilmək lazımdır. Kalorili qidalar qəbul etmək, bol su içmək də əsas tövsiyələr sırasındadır.

## Ən az idman belə hafizənin möhkəmlənməsinə kömək edə bilər

Yoqa və ya buna bənzər idman növü ilə məşğul olmaq hafizəni gücləndirir. Kaliforniya Universitetinin mütəxəssisləri müəyyən ediblər ki, idman yaddaşın formalaşması və qorunmasına cavabdeh beyin hissəcikləri arasındakı neyronların güclənməsinə səbəb ola bilər.



AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, mütəxəssislər 36 könüllünün 10 dəqiqə yüngül idmanla məşğul olduqdan sonra maqnit-rezonans tomoqramma vasitəsilə beyin fəaliyyətini öyrəniblər. Araşdırmaların əsasən beyində yeni neyronların və əsəb hüceyrələrin əmələ gəlmə prosesini öyrənməyə yönəlik aparıldığına baxmayaraq, bu mümkün olmayıb. Belə ki, alimlərin fikrincə beyində neyronların öyrənilməsi üçün 10 dəqiqə idman kifayət etmir. Lakin, buna baxmayaraq tədqiqatlar böyük beyin qabığının hafizə ilə bağlı bəzi hissələrini açıq-aydın müşahidə etməyə kömək olub. Aparılan testlər idmanın hafizənin gücləndirilməsinə müsbət təsir göstərdiyini təsdiq edib. Mütəxəssislər bildiriblər ki, ələ nəticə əldə etmək üçün hər gün mütəmadi olaraq idmanla məşğul olmaq vacibdir. Yoqa və ya pilateslə məşğul olmasanız belə gündəlik gəzinti də bu istiqamətdə səmərəli ola bilər.


## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya ixtisası üzrə III kurs tələbəsi Cabbarov Həzərxan Sucəddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai sinif müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Benaşivili Səbinə Roman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## Kafu: “Hər bir komanda müsbət nəticə qazana bilər”



İkiqat dünya çempionu, əfsanəvi futbolçu Kafu Azərbaycana səfəri çərçivəsində jurnalistlərə müsahibə verib. SİA futbolçunun müsahibəsini nəzərinizə çatdırır:

**- Azərbaycan futbolu haqda nə bilirsiniz?**

- Bakıya gələndən sonra Azərbaycan futbolu ilə maraqlanmağa başladım. FIFA-nın yeni layihələri çərçivəsində Bakıya yenidən səfər edə bilərəm.

**- “Qarabağ” Avropa Liqasında “Arsenal” və “Sportinq” kimi komandalarla rəqabət apara bilərmi?**

- Meydanda olanda hər şey özündən asılıdır. İlk öncə özünə inanıb meydana çıxmalısan. Hər bir komanda müsbət nəticə qazana bilər.

**- Sabiq komandanız İtaliya “Roma”sının ötən mövsüm Çempionlar Liqasında “Qarabağ”a qarşı keçirdiyi oyunlara baxmısınız?**

- Təəssüf ki, həmin oyunu izləyə bilməmişəm.

**- Azərbaycanda çıxış edən braziliyalı oyunçulardan kimisə tanıyırsınız?**

- Braziliyalı futbolçular dünyanın hər yerində çıxış edir. Bu, sevindirici haldır.

**- Uzun müddətdir braziliyalı oyunçular dünyanın ən yaxşı futbolçusu seçilə bilmir. Neymar bu uğursuz ənənəyə son qoya bilərmi?**

- Neymar dünyanın ən güclü futbolçularındandır. İnanıram ki, o, növbəti dünya çempionatlarında Braziliya yığmasının uğur qazanmasına töhfə verəcək. Neymar gələcəkdə “Qızıl top” mükafatını ala bilər.

***Elgün Vidadioğlu***

## “Bakıda keçirilən cüdo üzrə dünya çempionatı yüksək səviyyədə təşkil edilib”



Bakıda keçirilən cüdo üzrə dünya çempionatı yüksək səviyyədə təşkil edilib. Milli Gimnastika arenası çox gözəldir. AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçirilən cüdo üzrə dünya çempionatında qadınlar arasında 78 kiloqram çəki dərəcəsində bürünc medal qazanan Rusiya idmançısı Aleksandra Babintseva deyib.

“Bürünc medal uğrunda Çinli təmsilçi ilə üz-üzə gəldim. Çinli idmançı çox qeyri-standart mübarizə aparırdı. O, bir istiqamətə hərəkət edir, digər istiqamətə fənd işlədirdi. Özümü onun mübarizə üsuluna uyğunlaşdırdım və səhv etməməyə çalışdım. Ona qarşı ağrıdıcı fənd tətbiq edib qalib gəldim”, - deyə rusiyalı idmançı bildirib. Bakıya ilk dəfə gəldiyini deyən A.Babintseva paytaxtımızın gözəlliyinin onda xoş təəssürat yaratdığını vurğulayıb.

## “Uembli” stadionu 600 milyon funt-sterlinqə satıla bilər



İngiltərə Futbol Assosiasiyası Londondakı “Uembli” (Wembley) stadionunun 600 milyon funt-sterlinqə (788 milyon dollara) “Fulham” futbol klubunun sahibi Şahid Xana satılmasına razılıq verib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, Şahid Xan stadionu hələ bu ilin aprelindən satın almağa çalışsa da, yalnız son günlər danışıqlarda irəliləyiş əldə olunub. Lakin yekun qərar İngiltərənin Futbol Assosiasiyasının komissiyası tərəfindən verilməlidir.

Sövdələşmə bəzi məhdudiyyətlərlə baş tuta bilər. Belə ki, sponsorlardan heç kim stadionun adının dəyişdirilməsi və ya mövcud olan brendə əlavələr edilməsi kimi hüquqa malik olmayacaq. Həmçinin Xan öz öhdəliklərini lazımi qaydada icra etməsə, assosiasiya stadionu geri almaq hüququnu özündə saxlayacaq. Biznesmen stadiondan sahibi olduğu “Jacksonville Jaguars” (Amerika Milli Futbol Liqası) komandasının oyunları üçün istifadə etmək niyyətindədir.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**

**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**